QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 231 (5462) 16 **dekabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*



Səh 2

Azərbaycanın gənc alimlərinin birinci qurultayı keçirilib



8

Mübariz Qurbanlı vətəndaşları qəbul edəcək



9

Azərbaycanda investisiya təşviqi mexanizmi uğurla fəaliyyət göstərir



10

Siyavuş Novruzov: "Növbədənkənar seçkilərlə bağlı məlumatlar təxribatdır"



9

Ziyafət Əsgərov: "Ordunun daxili siyasətə aidiyyəti yoxdur"



9

Pirallahıda növbəti ağacəkmə aksiyası keçirilib



6

14

25 qanuna dəyişiklik edildi



12

BSU-da "Elçinin "Baş" romanı struktur-funksional təhlil müstəvisində" adlı monoqrafiyanın təqdimat mərasimi olub



16

Ronaldo növbəti rekorda imza atıb



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

16 dekabr 2017-ci il

# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*

## Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıt şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi.



## Prezident İlham Əliyev "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib. Dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və sənayenin əsaslı şəkildə inkişafı başlıca prioritetlərdəndir. Qarşıya qoyulan əsas məqsədlərdən biri də ölkəmizin bütün regionlarında sənayeni daha da inkişaf etdirməkdir. Ölkənin qeyri-neft sektoruna yönəldilən investisiyalar Azərbaycan iqtisadiyyatının daha da inkişafına və keyfiyyətli yerli məhsullar istehsalının genişləndirilməsinə hərtərəfli təkan verir. Bu baxımdan "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodu ölkə iqtisadiyyatına mühüm töhfədir. Bu cür zavodların fəaliyyəti ölkə iqtisadiyyatının sənayeləşdirilməsinin sürətləndirilməsinə, yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşməsinə, rəqabətqabiliyyətli müasir və prioritet istehsal sahələrinin yaradılmasına, sənayenin innovasiyalar əsasında inkişafının və yeni iş yerlərinin açılmasının təmin edilməsinə xidmət edir. Hazırda enerjidən səmərəli istifadə edilən, yüksək əlavə dəyər yaradan və ən son elmi-texniki yeniliklərə əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi üçün respublikamızda yenidənqurma tədbirləri ardıcıl xarakter daşıyır. "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunda da bu istiqamətdə tədbirlər davam etdirilir.



AZƏRTAC xəbər verir ki, "Baku Steel Company" MMC-nin müşahidə şurasının sədri Rasim Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, Azərbaycan boruyayma zavodu 1947-ci ildə yaradılıb, tam gücü ilə istehsal fəaliyyətinə isə 1952-ci ilin dekabrında başlayıb. Keçmiş SSRİ ərazisində tikişsiz boru istehsal edən 26 müəssisədən biri olan bu zavodda çalışanların sayı 12 min nəfər, onun illik istehsal gücü isə 1 milyon ton məhsul təşkil edib. 1979-cu ildə ulu öndər Heydər Əliyevin tapşırığına əsasən zavodun ərazisində neft sənayesi üçün qazma borularının istehsalı sahəsi yaradılıb. Bununla da zavod keçmiş SSRİ məkanında qazma borusu istehsal edən 3 müəssisədən birinə çevrilib. Zavodda istehsal olunan qazma, qoruyucu, nasos-kompressor, neft-qaz boruları, həmçinin ümumi təyinatlı borular neft və maşınqayırma sənayesində geniş istifadə edilib. 1995-ci ildə zavod fəaliyyətini tamamilə dayandırıb. İstehsal sahələri və qurğuları texniki cəhətdən yararsız hala düşüb.

**Ardı Səh. 3**



# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*

**Əvvəli Səh. 2**

2016-cı ilin oktyabr ayında “Baku Steel Company” MMC-nin oksigen zavodunun açılışı zamanı Prezident İlham Əliyev Sumqayıt boruyayma zavodunun əsaslı yenidən qurulması və fəaliyyətə başlaması barədə tapşırıqlar verib. Həmin tapşırıqlar əsasında zavod qısa müddət ərzində yenidən qurulub və fəaliyyətə başlaması üçün tam hazır vəziyyətə gətirilib.

Dövlətimizin başçısı zavodu işə saldı. Məlumat verildi ki, yenidənqurmadan sonra zavodun illik istehsal gücü 90 min tondan 200 min tona çatdırılıb. Müəssisədə quraşdırılan müasir avadanlıq keyfiyyətli məhsul əldə etməyə imkan verir. Quraşdırılan avadanlıq dünyanın bu sahədə aparıcı şirkətlərinin məhsuludur. Müəssisədə 531 nəfər daimi işlə təmin edilib ki, onların da orta aylıq əməkhaqqı 1500 manatdır. Zavodda 3 növbə üzrə 24 saatlıq rejimdə fəaliyyət göstərən 180 yerlik yeməkxana inşa edilib. Müəssisənin mərkəzi sınaq laboratoriyası ABŞ, Avropa, Çin və Tayvanda istehsal olunan müasir avadanlıqlarla təchiz edilib. Laboratoriyada metalın bərkliyini, möhkəmliyini, axma həddini və nisbi uzanmasını təyin edən avadanlıq quraşdırılıb, mikro və makrostruktur analizlər üçün hər növ mikroskoplar, metalın kimyəvi tərkibini təyin etmək üçün spektrometr qoyulub. Azərbaycan istehsalı olan borular daxili bazarda satılmaqla yanaşı, xarici ölkələrə də ixrac ediləcək. Müəssisənin məhsullarının Almaniya, Hollandiya, Belçika, İtaliya, Avstriya, Türkiyə, Rusiya, Qazaxıstan, Litva və Ukraynaya ixracı nəzərdə tutulur. Zavodun ərazisində geniş abadlıq işləri aparılıb, 38 min kvadratmetr sahədə yaşıllıq sahəsi salınıb.

Sonda xatirə şəkli çəkdirildi.











## Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında olub

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olub, yeni müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak edib. AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına burada görülən işlərlə bağlı məlumat verdi. Bu layihə Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı Fərmana uyğun olaraq həyata keçirilib. Sumqayıt Kimya Sənaye Parkının ümumi ərazisi 505,64 hektardır. Ərazidəki köhnə binalar və qurğular sökülüb, parkın müasir tələblərə cavab verən infrastrukturunun birinci mərhələsi üzrə tikinti-quraşdırma işləri başa çatdırılıb. Sumqayıt Kimya Sənaye Parkında, həmçinin inzibati binanın, laboratoriyaların, texniki peşə məktəbinin, işçilər və tələbələr üçün yataqxana binasının, sərgi-konfrans və logistika mərkəzlərinin, gömrük, tibb, dəmir yolu və yanğınsöndürmə məntəqələrinin, anbarların, yükləmə-boşaltma mərkəzlərinin və digər obyektlərin yaradılması işləri davam etdirilir.

Diqqətə çatdırıldı ki, parkın rezidenti olan “STP” Məhdud Məsuliyyətli Cəmiyyəti müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış zavodlar kompleksidir. “SOCAR Polymer” Məhdud Məsuliyyətli Cəmiyyətinin illik istehsal gücü 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen təşkil edəcək. Bu, son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ən böyük layihələrdən biridir.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri arasında “Alco Lubricant Company” Məhdud Məsuliyyətli Cəmiyyəti də var. Burada il ərzində avtomobil, hava və dəniz nəqliyyatında, kənd təsərrüfatı, sənaye və energetikada istifadə olunan müxtəlif növ yüksək keyfiyyətli 30 min ton sürtkü yağlarının istehsalı nəzərdə tutulub. Almaniya texnologiyası əsasında yaradılan müəssisədə 100 nəfər daimi iş yeri ilə təmin olunacaq. “MST Engineering Services” Məhdud Məsuliyyətli Cəmiyyətində ABŞ-ın Parker texnologiyası əsasında ildə 30 min ədəd yüksək təzyiqə davamlı xortum və fitinq istehsalı nəzərdə tutulur. Bu məhsullara neft-kimya, maşınqayırma və digər sənaye sahələrində böyük tələbat var. “Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyəti İtaliya texnologiyası əsasında yaradılacaq. Burada istehsal olunacaq məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac ediləcək. Silisium və Kalsium İstehsalat Müəssisəsində ildə 5 min ton tikinti qatqıları istehsal olunacaq. “Azerbaijan Fibro Cement” Məhdud Məsuliyyətli Cəmiyyətində ildə 6 milyon kvadratmetr fibro-sement lövhələr istehsal ediləcək. “Tabaterra” Qapalı Səhmdar Cəmiyyətində isə ildə 7 milyard ədəd siqaret istehsalı nəzərdə tutulub. Bildirilib ki, Sumqayıt Kimya Sənaye Parkında 67 MVt gücündə 110/35/6.3 kV-luq yarımstansiyanın inşası da başa çatdırılıb.

*Ardı Səh. 4*

# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*

Əvvəli Səh. 3




Sonra Prezident İlham Əliyev parkın ərazisində "AzerFloat" Qapalı Səhmdar Cəmiyyətinin termoformasiya metodu ilə şüşə istehsalı zavodunun təməlini qoydu. Məlumat verildi ki, "AzerFloat" Qapalı Səhmdar Cəmiyyəti Almaniyanın bu sahədə böyük təcrübəsi olan "HORN Glass İndustries AG" şirkətinin texnologiyası əsasında yaradılacaq. Müəssisədə il ərzində termoformasiya metodu ilə 8 milyon kvadratmetr şüşə istehsal olunacaq. Zavodda istehsal ediləcək məhsulların yüksək keyfiyyəti ilə yanaşı, rəqabətqabiliyyətli olmasına da xüsusi diqqət yetiriləcək. Müəssisənin istifadəyə verilməsi ilə Azərbaycanın bu sahədə ixrac potensialı da güclənəcək. Zavodun məhsullarının Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixrac edilməsi planlaşdırılır. Burada 180 nəfər işlə təmin olunacaq. Dövlətimizin başçısı Sumqayıt Kimya Sənaye Parkının ərazisində "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yunəyirici-boyaq fabrikinin də təməlini qoydu. Müəssisədə yun ipliklər və təmiz yun istehsal ediləcək. Fabrik İtaliya, Fransa və Türkiyə texnologiyası ilə fəaliyyət göstərəcək. Müəssisədə ildə 370 ton iplik və 195 ton təmiz yun istehsalı nəzərdə tutulur. Burada əhalidən alınan xam yun emal ediləcək, daha sonra onlardan ipliklər və təmiz yun əldə olunacaq. Fabrikdə, həmçinin boya prosesi də həyata keçiriləcək. İdxaldan asılılığı azaldacaq bu fabrikdə 100 nəfər işlə təmin ediləcək. Daha sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Gilan Sənaye Qrupu"na daxil olan "Aqrokimya Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin pestisidlər istehsalı zavodunun birinci mərhələsinin açılışında iştirak etdi.

Məlumat verildi ki, ümumi ərazisi 18,3 hektar olan zavodun istehsal sahəsi 21,4 min kvadratmetrdir. Kompleks 5 istehsal, 4 qablaşdırma, 5 məhsul və xammalsaxlama bölmələrindən ibarətdir. Müəssisənin birinci mərhələsinin illik istehsal gücü 20 min tondur. Burada 145 çeşiddə pestisid istehsal ediləcək və məhsulun keyfiyyəti zavodun daxilində beynəlxalq standartlara uyğun qurulmuş laboratoriyada müəyyən ediləcək. Bu müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9,5 milyon manat güzəştli kredit verilib. Zavod İtaliya və Türkiyənin aparıcı şirkətlərinin ən son texnologiyalarından istifadə olunmaqla qurulub. İstehsalda gələcəkdə yerli xammaldan daha çox istifadə edilməsi nəzərdə tutulur. İdxal olunan məhsullarla müqayisədə yerli istehsalın üstünlüyü 35-40 faiz təşkil edir. Perspektivdə isə bir sıra məhsul növlərinin xammal təminatı yerli istehsal hesabına təmin olunacaq və ixrac potensialı yaranacaq. Bunlardan əlavə, zavodun ərazisində inzibati bina, yeməkxana, laboratoriya, qazanxana və su anbarları var. Zavodda 100 yeni iş yeri yaradılıb. Layihənin ikinci mərhələsində bəzi məhsulların xammalının və yarpaq gübrəsi istehsalının təşkil olunması nəzərdə tutulur. Hazırda ölkənin pestisidlərə olan tələbatı 9,1 min ton təşkil edir. Bununla yanaşı, 182 min hektar ərazidə yaradılmaqda olan aqroparkların, 463 hektar sahədə istixana təsərrüfatlarının və əlavə 36 min hektarda əkilməsi nəzərdə tutulan şəkər çuğunduru sahələrinin pestisidlərə olan tələbatı 681 ton proqnozlaşdırılır. Beləliklə, ölkənin pestisidlərə olan ümumi tələbatı 9,8 min ton təşkil edəcək. Zavodun fəaliyyətə başlaması bu məhsullara olan daxili tələbatın tam ödənilməsinə imkan verəcək. Dövlətimizin başçısı müəssisəni işə saldı. Sonra Prezident İlham Əliyev parkın ərazisində "STDC" Məhdud Məsuliyyətli Cəmiyyətinin Məlumatların Emalı, Qeydə Alınması və Ötürülməsi Mərkəzinin açılışında iştirak etdi.

Bildirildi ki, burada ABŞ texnologiyasından istifadə olunacaq. Bu layihə yeni iş yerlərinin yaradılması baxımından da əhəmiyyətlidir. Belə ki, müəssisədə ilkin mərhələdə 100 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Data Mərkəz işə düşdükdən sonra Azərbaycanda "blockchain"in tətbiqi artacaq.

Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı:**

- Bu gün Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisə fəaliyyətə başlayır, bir neçə müəssisənin isə təməli qoyulub. Bu, çox gözəl, əlamətdar hadisədir. Bu, bir daha onu göstərir ki, Sumqayıt Kimya Sənaye Parkının yaradılması çox düzgün və vaxtında verilmiş qərardır. Bu gün dörd müəssisənin açılışı qeyd olunur, üç müəssisənin isə təməli qoyulub.

Sumqayıt Kimya Sənaye Parkının yaradılması Azərbaycanda sənaye sahəsində aparılan siyasətin təzahürüdür. Bu ərazidə dövlət tərəfindən bütün lazımi tədbirlər görülmüşdür. Beş yüz hektar sahədə bütün kommunikasiya, rabitə, nəqliyyat, bir sözlə, bütün infrastruktur layihələri dövlət tərəfindən icra edilmişdir. Özəl sektor isə öz növbəsində ölkəmiz üçün vacib olan sahələrə investisiya qoyuluşunu təmin edib. Sumqayıt Kimya Sənaye Parkının timsalında biz dövlət-özəl sektor tərəfdaşlığının gözəl nəticələrini görürük. Bu müəssisələrdə minlərlə insan işlə təmin olunur. Hazırda parkın 15 rezidenti var. Qoyulan və qoyulacaq sərmayələrin məbləği milyardlarla dollar həcmindədir. Əgər biz hələ ki, inşası davam edən bütün layihələri də nəzərə alsaq, 2,7 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur.

Bu gün ölkə iqtisadiyyatı, sənaye potensialı üçün vacib olan müəssisələr fəaliyyətə başlayır. O müəssisələr ki, idxaldan asılılığı aradan götürəcək. Bu, məni çox sevindirir. Çünki bizim əsas məqsədlərimizdən biri də odur ki, yerli istehsal artsın, iş yerləri yaradılsın və idxaldan asılılıq azalsın. Bu gün böyük şüşə zavodunun təməli qoyuldu. Bu zavod fəaliyyətə başlayandan sonra artıq Azərbaycanda şüşə idxalı dayandırılacaq. Əksinə, Azərbaycan özü şüşələri ixrac edəcək. Nəzərə alsaq ki, bu gün Bakıda və digər şəhərlərdə yüzlərlə yaşayış binası, müasir göydələnlər tikilir, şüşəyə tələbat çox böyük olacaq. Siz bilirsiniz ki, biz son vaxtlar xalçaçılığın inkişafına çox böyük diqqət göstəririk və artıq qısa müddət ərzində on xalça fabriki açılıbdır. Gələn il də on fabrik açılacaq və bütövlükdə otuz xalça fabrikinin yaradılması nəzərdə tutulur. Əlbəttə ki, bu fabriklərin uğurlu fəaliyyəti üçün yerli xammal lazımdır və əyirici-boyaq fabrikinin təməli də bu gün qoyulub. Bu, dövlət investisiyası hesabına yaradılacaq müəssisədir. Beləliklə, biz bütün xalçaçıları, həm bu fabriklərdə çalışan, eyni zamanda, fərdi qaydada işləyən xalça ustalarımızı öz xammalımızla təmin edəcəyik. Bu gün, eyni zamanda, siqaret fabrikinin təməli qoyulubdur. Bu fabrikin də çox böyük əhəmiyyəti var. Biz indi siqaret idxalından asılıyıq. Əlbəttə, biz hamımız istəyirik ki, Azərbaycanda siqaret istehlakı azalsın, insanlar bu pis vərdişdən əl çəksinlər. Ancaq hələ ki, bu, belə deyil. Əlbəttə, daxili istehsal xarici istehsalı əvəzləməlidir. Bu fabrikdə istehsal olunacaq məhsul daxili tələbatın əlli faizini bağlayacaq. Əminəm ki, gələcəkdə biz daxili tələbatımızı 100 faiz ödəyəcəyik və eyni zamanda, xarici bazarlara ixrac edəcəyik. Bu gün Azərbaycanda tütünçülük çox sürətlə inkişaf edir. Əlbəttə ki, tütünçülüyün son məhsulu olan siqaret istehsalı da Azərbaycanda yaradılır. Pestisid zavodunun tikintisi artıq öz həllini tapıb. Bu da çox vacib sahədir. Mənim göstərişimlə bu sahəyə böyük diqqət ayrılır. Çünki bu günə qədər biz yenə də idxaldan asılıyıq. İndi daxili tələbatı bu parkda yaradılan zavod tam ödəyəcək. Gələcəkdə - növbəti mərhələdə isə ixrac imkanı da yaradılacaq. Bu, kənd təsərrüfatının inkişafına çox böyük təkan verəcək. Çünki kənd təsərrüfatı sənaye istehsalı ilə bərabər, bizim əsas, prioritet istiqamətimizdir. Düzgün aqrotexniki tədbirlərin görülməsi nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra bilərik. Bu müasir və çox böyük imkanlara malik olan Data Mərkəzinin açılması da çox əlamətdar hadisədir. Bu, dünyanın ən son texnologiyalarına əsaslanan mərkəzdir. Azərbaycan bu sahədə də dünya miqyasında liderlik nümayiş etdirir. Bildiyiniz kimi, blokçeyn texnologiyası bu gün dünyada çox böyük diqqətə malik olan bir sahədir. Bir çox ölkələr, şirkətlər bu texnologiyanı öz ölkələrinə gətirmək üçün çalışırlar, fəaliyyət göstərirlər. Burada da Azərbaycan ön sıralardadır. Belə böyük və müasir, bütün dünya standartlarına cavab verən Data Mərkəzinin yaradılması onu göstərir ki, biz gələcəyə baxırıq, biz ölkəmizi dünyada gedən mütərəqqi proseslərə uyğun şəkildə inkişaf etdiririk. Bu, həm elm mərkəzidir, həm sənaye müəssisəsidir və həm də böyük biznes sahəsidir. Bir sözlə, bir gündə Sumqayıtda, görün, yeddi müəssisəyə təkan verilir, onların fəaliyyəti təmin edilir. Əgər biz Sumqayıt Kimya Parkının digər rezidentlərini də əlavə etsək, görərik ki, bu, doğrudan da dünya miqyasında böyük bir sənaye mərkəzidir. Çünki hazırda "SOCAR Polymer" və karbamid zavodlarının tikintisi davam edir. Bu iki layihənin ümumi sərmayə həcmi 1 milyard 700 milyon dollardır. Bu, bizə imkan verəcək ki, həm yerli istehsalı, yerli xammalı təmin edək, həm də ki, böyük ixrac imkanları yaradılacaq. Qeyd etdiyim kimi, bu sənaye parkında bütövlükdə 15 rezident var. Həm xarici, həm də daxili investorlar burada fəaliyyət göstərirlər. Əgər biz vaxtında bu qərarı qəbul etməsəydik və dövlət öz tərəfindən bütün lazımi tədbirləri görməsəydi, o cümlədən maliyyə dəstəyini göstərməsəydi, əlbəttə ki, bu gün bu park da olmayacaqdı və biz bu gözəl imkanlardan məhrum ola bilərdik. Əminəm ki, Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti gələcəkdə daha da genişləndiriləcəkdir. Burada böyük ərazilər var, yeni layihələr təqdim olunur, yeni layihələr nəzərdən keçirilir. Ona görə bu parkın çox böyük gələcəyi var. Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir. Burada yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda Kimya Sənaye Parkında 8 mindən çox insan işləyir - həm tikintidə, həm də müəssisələrin idarə olunmasında. Gələcəkdə bu rəqəm daha da artacaq. Deməli, Sumqayıtda işsizliklə bağlı bütün məsələlər öz həllini tapacaq. Biz gələcəkdə də Sumqayıtın hərtərəfli inkişafı üçün öz dəstəyimizi verəcəyik. O ki qaldı, sənaye zonalarının yaradılmasına, bu proses ölkəmizdə geniş vüsət alıb. Neftçala Sənaye Məhəlləsi fəaliyyətə başlayıb, Hacıqabul, Masallı, Sabirabad rayonlarında oxşar zonalar yaradılır. Mingəçevir Yüngül Sənaye Parkında birinci böyük fabrikin açılışı gələn ilin əvvəlində nəzərdə tutulur. Yəni, Azərbaycanda sənayeləşmə prosesi sürətlə gedir. Bunun təməlində bizim siyasətimiz, xarici və yerli investorların inamı dayanır. Çünki ancaq sabit olan ölkələrə investisiya cəlb olunur. Azərbaycan o ölkələrdəndir ki, çox gözəl beynəlxalq nüfuza malikdir, iqtisadi cəhətdən uğurla inkişaf edir. Davos Forumunun hesablamalarına görə, ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə biz 35-ci yerdəyik. Bu gün Sumqayıtda bu 7 müəssisənin, bundan əlavə, bu müəssisələri qidalandıran yarımstansiyaların fəaliyyətə başlaması bizim düzgün siyasətimizi bir daha göstərir və biz 2017-ci ili uğurla başa vururuq.

Ardı Səh. 5

# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*

Əvvəli Səh. 4

Sumqayıtın ümumi inkişafı məni çox sevindirir. Mən on səkkizinci dəfədir ki, Sumqayıtda səfərdəyəm. Bu il ikinci dəfədir ki, gəlmişəm. Şəhərdə bütün infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir. Fasiləsiz içməli su ilə təminat 94 faizə çatıbdır, qazlaşma 100 faizdir, elektrik enerjisi ilə heç bir problem yoxdur, yeni yollar salınır. Biz bu il Bilgəh-Sumqayıt sahilboyu yeni yolun salınmasını təmin etdik. Sosial obyektlər, məktəblər, xəstəxanalar, Olimpiya kompleksi, Paralimpiya mərkəzi, "ASAN xidmət" mərkəzi yaradılıb. Bu gün biz "Kimyaçı" Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışını qeyd edəcəyik. Yəni, həm sosial, həm iqtisadi sahədə, sənaye sahəsində çox böyük inkişaf var. Sumqayıt bulvarı isə, - mən bunu bulvarın açılışında da demişəm", - bir möcüzədir. Çünki qısa müddət ərzində belə bulvarın salınması doğrudan da çox böyük hadisədir. İnsanların rahat yaşaması, işlə təmin olunması üçün bütün işlər görülür. Bir daha demək istəyirəm ki, Sumqayıt dünya miqyasında böyük müasir sənaye mərkəzinə çevrilir. Bir məsələni də qeyd etməliyəm ki, bütün müəssisələr ən yüksək ekoloji standartlara malikdir. Bunu mən xüsusi tapşırmışdım. Çünki bilirsiniz ki, vaxtilə Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi. Hətta bütün beynəlxalq reytinqlərdə dünyanın ekoloji cəhətdən ən problemli şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt ekoloji cəhətdən bəlkə də ən gözəl və təmiz şəhərlərdən biridir. Bax, biz buna nail ola bilmişik. Buna görə Sumqayıtın ekoloji vəziyyətinin daim yaxşılaşdırılması diqqət mərkəzindədir və bu gün buranın təmiz havası, gözəl iqlimi əminəm ki, sumqayıtlılar üçün də çox önəmlidir. Biz ili uğurla başa vururuq. On bir ayda sənaye istehsalı qeyri-neft sahəsində 3,5 faiz, qeyri-neft iqtisadiyyatımız 2,4 faiz, kənd təsərrüfatı 4 faizdən çox artıbdır. Budur, əsas iqtisadi göstəricilərimiz. Valyuta ehtiyatlarımız da artır, maliyyə vəziyyətimiz də çox sabitdir. Bu gün Azərbaycan belə gözəl əsərlər yaradır və xalqımıza bəxş edir. Burada, bu görüşdə iştirak edən bütün vətəndaşlar bu gün açılışında və təməlinin qoyuluşunda iştirak etdiyim müəssisələrin nümayəndələridir. Mən sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sizi qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sağ olun.

**"Azərikimya" İstehsalat Birliyinin əməkdaşı Şəhla ABDULLAYEVA çıxış edərək dedi:**

-Möhtərəm cənab Prezident, Sizi əməksevər sumqayıtlılar adından salamlayıram. Bizim gündəngünə gözəlləşən Sumqayıt şəhərimizə gəldiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Siz hamıdan yaxşı bilirsiniz ki, Sumqayıt böyük kimya sənayesi şəhəri kimi yenilənib. Sumqayıtın kimya sənayesi mərkəzi kimi formalaşmasında ulu öndərimiz Heydər Əliyevin misilsiz rolu olub. Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə Sumqayıtda neft-kimya sənayesi yenilənib və müasir texnologiyalara uyğun olaraq yeni müəssisələr yaradılıb. Buna görə də Sumqayıtın adı Ulu Öndərimizin daim diqqət və qayğı göstərdiyi şəhər kimi ölkəmizin şanlı tarixinə yazılıb. Cənab Prezidentimiz, biz çox sevinirik ki, Siz Ulu Öndərimizin layiqli davamçısı kimi bizim doğma Sumqayıt şəhərimizə daim diqqət və qayğı göstərirsiniz. Buna görə Sizə minnətdarıq. Son zamanlar Sumqayıt Kimya Sənaye Parkının yaradılması bunun bariz nümunələrindən biridir. Burada müxtəlif zavodlar, fabriklər tikilib. Biz dəqiq bilirik ki, insanlar işsiz qalmayacaq. Son zamanlar Cənubi Qafqazın ən iri sənaye şəhərlərindən birinə çevrilən Sumqayıtımız üçün Sizə minnətdarıq. Çox sağ olun, cənab Prezidentimiz. Hamı yaxşı bilir ki, gənclər şəhəri Sumqayıt gündəngünə gözəlləşir, abadlaşır. Bu, insanlarımızı sevindirir. Biz bunu insanların simasından, çöhrəsindən hiss edirik. Sumqayıta gələn qonaqlar şəhərimizin gözəlliyinə, gözoxşayan bulvara, yeni tikilmiş binalara heyran qalırlar. Biz bilirik ki, onlar şəhərimizə həsəd aparırlar. Bunun üçün biz, cənab Prezidentimiz, Sizə və Sizinlə çiyin-çiyinə böyük əzmlə xalqımıza xidmət göstərən Mehriban xanıma minnətdarıq. Sizdən biz sumqayıtlıların salamlarını Mehriban xanıma çatdırmağı xahiş edirik. Biz sumqayıtlılar həmişə Sizinləyik. Allah Sizi və ailənizi qorusun.

**Prezident İlham ƏLİYEV:**

Çox sağ ol, təşəkkür edirəm.

**"Gilan Sənaye Qrupu"nun baş direktorunun müavini Zaur QASIMOV çıxış edərək dedi:**

-Cənab Prezident, bu mürəkkəb zamanda Sizin yürütdüyünüz çevik siyasət nəticəsində iqtisadiyyatın bütün sahələri üzrə məqsədyönlü tədbirlər həyata keçirilir. Respublikamızın şəhərlərində iri sənaye müəssisələri, texnoparklar, regionlarda isə sənaye zonaları yaradılır. Aqrar sahədə intensiv metodlara keçidin və müasir texnologiyaların tətbiqinin təmin olunması üçün "Gilan Sənaye Qrupu" Sizin tapşırığınıza uyğun olaraq "Aqrokimya Azərbaycan" müəssisəsinin yaradılması qərarına gəlib. Sizin tapşırığınıza əsasən bu müəssisə məhz Sumqayıt Kimya Sənaye Parkında yerləşdirilərək rezident statusunu alıb və rezidentlərə verilən dövlət dəstəyi mexanizmlərindən tam faydalanıb. Müəssisəmiz aqrar sahəyə dəstək verməklə yanaşı, bazarın tələbatına uyğun olaraq 10 min ton bitki mühafizə vasitəsi istehsalı gücünə malikdir və bununla da dünya standartlarına uyğun 145 çeşiddə pestisid istehsalı ilə məşğul olacaqdır. Möhtərəm cənab Prezident, yerli istehsalçılara verdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, bizim müəssisə də Sizin rəhbərliyinizlə aqrar sahədə həyata keçirilən siyasətə öz töhfəsini verəcək.

Sonda xatirə şəkli çəkdirildi.





## Prezident Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıta səfəri çərçivəsində şəhərin Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. Son illərdə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin daxil olması ilə müşayiət olunur. Ölkəmizin bütün bölgələrində müasir səviyyədə ictimai yerlərin, bulvarların, parkların və xiyabanların yaradılması tədbirləri davam etdirilir. Bu proses Sumqayıtda da geniş vüsət alıb. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, asudə vaxtlarının daha da səmərəli təşkili məqsədi daşımaqla yanaşı, müasirləşən Sumqayıtın gözəlliyinə əlavə çalarlar qatır. AZƏRTAC xəbər verir ki, Sumqayıtın Lüdviqşafen parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, oturacaqlar qoyulub. Burada aparılan yenidənqurma işləri ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni parkların, istirahət məkanlarının və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Sumqayıtın daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir. Şəhərin 9-cu mikrorayonunun ərazisində yerləşən Lüdviqşafen parkı müasir səviyyədə yenidən qurulub. Bu istirahət məkanı Sumqayıt şəhəri ilə qardaşlaşmış Almaniyanın Lüdviqşafen şəhərinin şərəfinə salınıb. Onu da deyək ki, Lüdviqşafen şəhərində də Sumqayıt parkı mövcuddur. Bu park 1997-ci ildə Sumqayıt-Lüdviqşafen əlaqələrinin 20 illiyi münasibətilə salınıb. Ümumi ərazisi 2 hektar olan parkda sakinlərin istirahəti üçün geniş imkanlar yaradılıb. Yenidənqurma işləri zamanı müasir oturacaq və işıq dirəkləri qoyulub, yaşıllıq zolaqları salınıb, dekorativ ağac və güllər əkilib. Bu park Sumqayıtın gəzməli yerlərinə daha bir ünvan əlavə edib. Mövcud istirahət mərkəzlərinin, parkların, xiyabanların yenidən qurulması, yeni istirahət guşələrinin açılması, ilk növbədə, sosial layihədir. Bununla yanaşı, belə layihələrin icrası ölkəmizin iqtisadi potensialını nümayiş etdirir, Azərbaycan dövlətinin əhalinin istirahətinin yüksək səviyyədə təşkili məsələsinə olan diqqətini göstərir.

## Prezident İlham Əliyev Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin "Kimyaçı" Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Sumqayıtın "Kimyaçı" Mədəniyyət Sarayı 1986-cı ildə istifadəyə verilib.

*Ardı Səh. 6*

# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*










**Əvvəli Səh. 6**

2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfəri zamanı “Kimyaçı” Mədəniyyət Sarayının mövcud vəziyyəti, 2013-cü ildə isə Mədəniyyət Sarayında və ətraf ərazidə aparılan abadlıq-quruculuq işləri ilə tanış olub. Burada yenidənqurma işləri 2017-ci ilin sentyabr ayında tam başa çatdırılıb. Sarayın yenidən qurulması istiqamətində işlər yüksək keyfiyyət və müasir dizaynla yerinə yetirilib. Üçmərtəbəli binanın ümumi sahəsi 6900 kvadratmetrdir. Saraydakı 750 tamaşaçı yerlik konsert zalı yüksək səviyyədə qurulub. Zalın yenidən qurulması zamanı müasir akustik sistemlərdən istifadə olunub. Həmçinin binada qonaq, qrim və rejissor otaqları yaradılıb. Sahəsi 270 kvadratmetr olan rəqs zalı, kafe və dərnək otaqları da mədəniyyətsevərlərin ixtiyarına verilib. “Kimyaçı” Mədəniyyət Sarayında təsviri və tətbiqi incəsənət, əl ilə toxuma dərnəkləri fəaliyyət göstərir. Prezident İlham Əliyev sumqayıtlı sənətkarların əl işləri ilə tanış oldu. Sarayda xanəndəlik, zərb alətləri, rəqs, instrumental ifaçılıq dərnəkləri də fəaliyyət göstərir. Azərbaycan zəngin mədəniyyəti ilə həmişə fəxr edib. Azərbaycanın mədəni dəyərləri dünya mədəniyyətinin ayrılmaz parçasıdır. Son illərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanda mədəniyyət sahəsinin inkişafı istiqamətində çox mühüm və tarixi işlər görüblər. Bu baxımdan yeni mədəniyyət ocaqlarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələrin coğrafiyası son illərdə daha da genişlənib. “Azərikimya” İstehsalat Birliyinin “Kimyaçı” Mədəniyyət Sarayının əsaslı şəkildə yenidən qurulması da bu işlərin ardıcıl surətdə davam etdirilməsini nümayiş etdirir. Mədəniyyət Sarayının qarşısındakı 5 hektarlıq meydanda geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılıb, kommunikasiya xətləri və işıqlandırma sistemi yenidən qurulub. Burada fəvvarə və 100 avtomobil yerlik dayanacaq yaradılıb.




## Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycanda regionların sürətli sosial-iqtisadi inkişafı göstərir ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirir.

**Ardı Səh. 7**

# Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib

*Prezident İlham Əliyev Sumqayıt şəhərində bir sıra obyektlərin açılışında iştirak edib*



Əvvəli Səh. 6

Paytaxtla yanaşı, bölgələr də inkişaf edir. Regionlarda yeni inzibati binaların tikintisi davam etdirilir. Azərbaycanın aparıcı siyasi qüvvəsi olan və 2017-ci ildə yaranmasının 25 illiyini qeyd edən Yeni Azərbaycan Partiyası ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Sıraları getdikcə genişlənən partiyanın ümumi amallar naminə uğurlu fəaliyyətində rayon təşkilatlarının da böyük rolu var. Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının yeni inşa olunmuş inzibati binaları da müasirliyi ilə seçilir və həmin binalarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılır.

Son illərdə Sumqayıt şəhərində çoxlu sosial təyinatlı infrastruktur obyektləri tikilib istifadəyə verilib. Bu sırada inzibati binalar da xüsusi əhəmiyyət kəsb edir. Sumqayıt şəhərinin ictimai-siyasi həyatında mühüm rol oynayan partiyanın yeni inzibati binasında yaradılan şərait təsdiqləyir ki, Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın daha parlaq gələcəyi naminə fəaliyyətində bundan sonra da səylərini əsirgəməyəcək. Məlumat verildi ki, üçmərtəbəli binanın foyesində Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevin büstü qoyulub, Heydər Əliyev guşəsi yaradılıb. Binada inzibati otaqlar, 300 yerlik iclas zalı var. İclas zalında Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı müxtəlif tədbirlərin, seminarların və konfransların yüksək səviyyədə keçirilməsi mümkündür. Burada, eyni zamanda, şəhərin həyatında baş verən əlamətdar günlərlə bağlı tədbirlər keçiriləcək. Binada yeməkxana da fəaliyyət göstərəcək. Onu da deyək ki, respublikanın hər yerində olduğu kimi, Sumqayıt şəhərində də Yeni Azərbaycan Partiyasının üzvləri fəallıqları ilə seçilirlər. Onlar şəhərin ictimai-siyasi həyatında fəal iştirak edir, Sumqayıtın sosial-iqtisadi inkişafına töhfələrini verirlər. Hazırda Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının 26 min 150 nəfər üzvü var ki, onlardan da 13 min 837-si qadınlar, 14 min 429-u isə gənclərdir.



## Sumqayıtda Bayraq Muzeyinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Bayraq Muzeyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi. Muzeylə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, binanın inşasına 2017-ci ilin fevralında başlanılıb və sentyabr ayında tikinti işləri başa çatdırılıb. İnşaat işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 10 min kvadratmetr olan muzeyin üçmərtəbəli binasında iki sərgi zalı, inzibati və yardımçı otaqlar yaradılıb. Sərgi zallarında 6 bölmə fəaliyyət göstərəcək. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər nümayiş olunur. Muzeyin eksponatları arasında XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər, keçmiş Azərbaycan SSR-in və müstəqil Azərbaycan Respublikasının konstitusiyaları, gerblər, bayraqlar var. Ekspozisiyalarda müxtəlif illərə aid poçt markaları, orden və medallar da nümayiş olunur. Bayraq Muzeyi Sumqayıt Dənizkənarı Bulvarın ərazisində yerləşir. Muzeyin məhz bu ərazidə inşa edilməsi şəhər sakinləri ilə yanaşı, qonaqların da buranın eksponatları ilə tanış olması üçün imkan yaradır. Qeyd edək ki, bu cür muzeylərin yaradılması gənc nəsildə vətənpərvərlik hisslərinin aşılanması, onların Vətənə, dövlətə məhəbbət ruhunda yetişməsi və bir şəxsiyyət kimi formalaşması məsələsində mühüm rol oynayır.



## Prezident İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevi təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevi ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik edib. Məktubda deyilir:Hörmətli Nursultan Abişeviç, Qazaxıstan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Qardaş Qazaxıstan dövlətçiliyin möhkəmləndirilməsində, sosial-iqtisadi və humanitar sahələrdə mühüm uğurlar qazanmış, dünya birliyinin fəal və nüfuzlu üzvünə çevrilmişdir. İnanıram ki, ortaq tarixi keçmişə və milli-mənəvi dəyərlərə malik xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan-Qazaxıstan dövlətlərarası münasibətləri, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dostluq və tərəfdaşlığımız bundan sonra da birgə səylərimizlə inkişaf edəcəkdir. Hörmətli Nursultan Abişeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqına daim sülh və rifah diləyirəm.

## Azərbaycan Prezidenti Bəhreyn kralını təbrik edib

Azərbaycan prezidenti İlham Əliyev Bəhreyn kralı şeyx Həməd bin İsa Al Xəlifəyə təbrik məktub göndərib. Məktubda deyilir:

"Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. İnanıram ki, Azərbaycan ilə Bəhreyn arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcək. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

## Prezident Sumqayıta 7 milyon manat ayırdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün podratçı təşkilatlara zəruri avansın ödənilməsindən ötrü Sumqayıt Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 7,0 (yeddi) milyon manat, o cümlədən çoxmənzilli binaların istismara yararsız 105 liftinin yeniləri ilə əvəz edilməsi üçün 3,7 milyon (üç milyon yeddi yüz min) manat, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün 3,3 milyon (üç milyon üç yüz min) manat ayrılsın.

# Azərbaycanın gənc alimlərinin birinci qurultayı keçirilib

## *Gənc alimlərimiz dövlətin diqqət və qayğısına cavab olaraq Azərbaycanın inkişafına yeni töhfələr vermək əzmindədirlər*

***Dünən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın gənc alimlərinin birinci qurultayı keçirilib. SİA xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.***



Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Qurultayın açılış mərasimindən əvvəl gənc alimlərin son illər əldə etdiyi nailiyyətlərdən ibarət sərgiyə baxış olub. Respublika gəncliyinin fəaliyyətini əks etdirən videokontentlər sərginin baş monitorunda yayımlanıb. Sərgini ziyarət edənlərə AMEA-nın institut və təşkilatları, regional elmi bölmə və mərkəzləri üçün ayrılmış guşələrdə gənc alimlərin tədqiqatları, həyata keçirdikləri innovativ layihələr və əldə etdikləri elmi nəticələr barədə ətraflı məlumat verilib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Prezident İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxuyub (məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur). AMEA-nın prezidenti, akademik Akif Əlizadə tədbirin Prezident İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən təşkil olunduğunu bildirib. O, qurultayın intellektual gəncliklə bağlı proqramda nəzərdə tutulan vəzifələrin icrasına töhfə verəcəyinə əminliyini ifadə edib. Akademik Akif Əlizadə müasir dövrün sosial-siyasi reallıqlarının, dünyanın yeni çağırışlarının intellektual gənclik qarşısında bir sıra mühüm vəzifələr qoyduğunu söyləyib. Vurğulayıb ki, ölkədə və xaricdə yaşayan gənc azərbaycanlı alimlərin elmi fəaliyyəti müasir tələblər səviyyəsində əlaqələndirilməli, gənclər daha geniş miqyasda elmi fəaliyyətə cəlb olunmalıdırlar. Akademiyada gənclərin intellektual potensialının inkişafı, biliklər cəmiyyətinin qurulmasında onların rolunun artırılması, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülüb. Son illər AMEA-nın 100-ə yaxın gənc aliminin dünyanın nüfuzlu elmi mərkəzlərinə ezam olunduğunu bildirən akademik prosesin hazırda da davam etdirildiyini vurğulayıb. AMEA-nın gənc alimlərinin bir çox elmi nailiyyətlər əldə etdiyini, yeni kəşflərə imza atdıqlarını diqqətə çatdıran akademik Akif Əlizadə deyib: "Gənclərimiz Dubna şəhərindəki Birləşmiş Nüvə Tədqiqatları İnstitutu, Cenevrədəki Avropa Nüvə Tədqiqatları Təşkilatı və digər beynəlxalq elmi mərkəzlərdə aparılan qlobal elmi layihələrdə yaxından iştirak edirlər. Molekulyar biologiya və biotexnologiyalar sahəsində gənc alimlərin apardığı tədqiqatlar nəticəsində Azərbaycanda ilk dəfə xüsusi bitkilərdə fitoplazma patogeni aşkar olunub, dünya elmi üçün dörd yeni genotip müəyyənləşdirilib. Onların yaxından iştirakları ilə yeni sinif unikal funksional materiallar - topoloji izolyatorlar sintez olunub, Avropa ölkələri və Yaponiyanın elmi müəssisələri ilə birlikdə tədqiq edilib". Qurultay iştirakçılarını təbrik edən AMEA rəhbəri gənc alimlərə elmi fəaliyyətlərində uğurlar arzulayıb, gənclərə göstərdiyi xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə bütün tədbir iştirakçıları adından dərin minnətdarlığını bildirib. Ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışan gənclər və idman naziri Azad Rəhimov deyib: "Gənclər və İdman Nazirliyi yeniyetmə və gənclərin elmə marağının artırılması istiqamətində bir sıra layihələr icra olunur. Belə ki, "İstedadların hazırlığı laboratoriyası" layihəsi artıq beş ildir həyata keçirilir. Layihə riyazi düşüncəyə malik məktəblilərin üzə çıxarılmasında mühüm rol oynayır. Bu müddət ərzində səkkiz min yeniyetmə fizika, riyaziyyat və kimya üzrə olimpiadada iştirak edib. Qaliblər artıq beynəlxalq fənn olimpiadalarında da uğurla iştirak edirlər".





Nazir, həmçinin rəhbərlik etdiyi qurum tərəfindən ilk dəfə keçirilən milli "İdeya var!" müsabiqəsi haqqında məlumat verib, belə layihələrin kadrların yetişdirilməsində böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Təhsil nazirinin müavini Ceyhun Bayramov ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin elm və təhsilin inkişafı məqsədilə bir çox fərman və sərəncamlar imzaladıqlarını xatırladıb. Qeyd edib ki, bu gün ölkə iqtisadiyyatının tələblərini ödəmək məqsədilə yüksəkixtisaslı mütəxəssis və alimlər hazırlanır. XXI əsrin milli təhsil quruculuğunun "yol xəritəsi" sayılan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihələrdən söz açan Ceyhun Bayramov ali təhsil sisteminin yeni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və formalaşdırılması üzrə görülən işlərin ali təhsil müəssisələri qarşısında yeni vəzifələr qoyduğunu söyləyib. Təhsilin keyfiyyətinin yüksəldilməsindən və kadr hazırlığının təmin edilməsindən danışan nazir müavini qeyd edib ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurla reallaşdırılması gənclərimizin elmə daha yaxından cəlb olunması və dünya elminə inteqrasiyası baxımından atılmış mühüm addımlardan biridir. Eyni zamanda, "SABAH" qruplarının yaradılması, "Sabahın alimləri" respublikası müsabiqəsinin keçirilməsi, respublika və beynəlxalq fənn olimpiadalarının təşkili, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemilə tədrisin təşkili Qaydaları"na dəyişikliklərin edilməsi və tələbələrə uzunmüddətli güzəştli kreditlərin verilməsi onların təhsilalma imkanlarının genişləndirilməsində böyük rol oynayıb. Hazırda respublikamızın orta ümumtəhsil məktəblərində "Kiçik akademiya"ların fəaliyyətindən bəhs edən Ceyhun Bayramov həmin akademiyaların alimlərlə əlaqələrin yaradılması, şagirdlərə tədqiqat aparmaq, elmi nəticələri ümumiləşdirmək və onları təqdim etmək bacarıqlarının aşılanması, məktəblilər üçün konfrans və müsabiqələrin təşkil olunması işində xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb. Avropa Komissiyası, AMEA və bir sıra ali təhsil müəssisələrinin iştirakı ilə həyata keçirilən "Nizami" layihəsinə, 2017-ci ildə "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi qaydası"nın təsdiq olunmasına, elmlə təhsilin inteqrasiyasına və digər bir sıra aktual məsələlərə toxunan nazir müavini ilk növbədə aparılan tədqiqatların keyfiyyətinin artırılmasının vacibliyini bildirib. Ceyhun Bayramov deyib: "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən aktual elmi araşdırmalara vəsaitin ayrılması, ali təhsil müəssisələrinin və elmi təşkilatların maddi-texniki bazasının gücləndirilməsi, elmi məqalə və elmi jurnalların keyfiyyətinin təmini, informasiya kommunikasiya resurslarından istifadənin genişləndirilməsi davamlı inkişafa xidmət edir".

Sonra qurultayın bəyannamə layihəsinin hazırlanması məqsədilə işçi orqanının yaradılması təklif olunub. Tədbirdə qurultayın mandat komissiyası və katibliyinin tərkibi təsdiq edilib. Qurultayda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Əsgər Ələkbərov, AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru, dosent Famin Salmanov, Prezident mükafatçısı, Bakı Dövlət Universitetinin müəllimi Aygün İsrailova, Milli Aviasiya Akademiyasının magistratura və doktorantura şöbəsinin metodisti, texnika üzrə fəlsəfə doktoru Ramil Muxtarov, AMEA Neft və Qaz İnstitutunun təhsil şöbəsinin əməkdaşı, akademiyanın ilk məzunu Səfiyyə Əliyeva və digərlərinin çıxışları dinlənilib. Elmi fəaliyyətlə məşğul olmağın üstünlüklərindən və perspektivlərindən bəhs edən gənclər dövlətin elmi gənclik üçün yaratdığı şəraitdən söz açıb, bunun elmi tədqiqatların genişləndirilməsində güclü stimul olduğunu vurğulayıblar. Çıxışlarda Azərbaycan elminin inkişafı istiqamətində bir sıra əhəmiyyətli təkliflər səsləndirilib, geniş müzakirələr aparılıb. "Gənc alimlərimiz dövlətin diqqət və qayğısına cavab olaraq müstəqil Azərbaycanın inkişafına yeni töhfələr vermək əzmindədirlər" - qurultayda belə bir yekdil fikir ifadə olunub.

Qurultayın mandat komissiyasının sədri, filologiya üzrə fəlsəfə doktoru Hikmət Quliyev science.az portalında yaradılmış analitik informasiya sisteminə əsasən məlumatları təqdim edib və qurultayın səlahiyyətli olduğunu diqqətə çatdırıb. Daha sonra Azərbaycanın gənc alimlərinin birinci qurultayının bəyannaməsi qəbul olunub. Sənəddə bildirilir ki, intellektual gəncliyin innovativ potensialının üzə çıxarılması, onların təhsil və məşğulluq məsələlərinə diqqətin artırılması, ölkəmizdə və xaricdə yaşayan gənc alimlərin fəaliyyətinin əlaqələndirilməsi istiqamətində işin gücləndirilməsi vacibdir. Qurultay iştirakçıları müasir dövrün tələbləri səviyyəsində yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə nail olmaq üçün elm və təhsilin inteqrasiyası üzrə səmərəli tədbirlərin həyata keçirilməsində bundan sonra da səyləri birləşdirməyə çağırır. Bəyannamədə gənc alimlərin intellektual fəaliyyəti ilə bağlı mövcud qanunvericilik bazasının gücləndirilməsinin, müasir tələblər səviyyəsində normativ hüquqi sənədlərin hazırlanmasının vacibliyi qeyd olunur. Sonda qurultay iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul edilib. Müraciəti AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Eşqanə Babayeva səsləndirib.

# İcbari tibbi sığortanın tətbiqi ilə bağlı pilot layihələrin əhatəsi genişləndiriləcək

*Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Musa Quliyevin yap.org.az-a müsahibəsi*

***- Musa müəllim, 2017-ci il başa çatmaq üzrədir. Sosial-iqtisadi baxımdan, bu ilin yekunlarını necə səciyyələndirirsiniz?***

- Ümumiyyətlə, başa çatmaqda olan 2017-ci ilin yekunları, o cümlədən parlamentdə keçirilən 2018-ci ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirələri göstərdi ki, yola saldığımız il Azərbaycanın ictimai, sosial-iqtisadi həyatı üçün uğurlu oldu. Baxmayaraq ki, dünyada maliyyə-iqtisadi böhran davam edir, amma Prezidentimiz cənab İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu böhrandan itkisiz çıxıb, sosial məsələlərin həllində heç bir çətinlik olmayıb. 2 il əvvəl Azərbaycan manatı devolvasiyaya uğrasa da, makroiqtisadi sabitlik təmin edilib, uğurlu iqtisadi inkişafımız davam edir.

Həyata keçirilən mühüm tədbirlər, xüsusilə strateji yol xəritələrinin icrasına başlanılması iqtisadiyyatımızın postneft dövründə sürətlə artımına və xarici təsirlərə davamlı münasibətin formalaşmasına səbəb oldu.

Bu ili sosial-iqtisadi cəhətdən təhlil edəndə ilk olaraq onu vurğulamalıyıq ki, qeyri-neft sektorunda əldə olunan gəlirlər ümumi daxili məhsulun 75 faizini təşkil edir. Bu, həqiqətən də çox böyük göstəricidir. Xatırlayıram ki, hələ 1990-cı illərdə müxalifət ölkəmizin gələcəyi haqqında bədbin fikirlər söyləyirdi, "holland sindromu"ndan danışırdılar. Amma tarix həmin qüvvələrin belə fikirlərinin cəfəngiyyat olduğunu təsdiqlədi.

Hazırda ölkəmizdə sürətlə inkişaf edən sahələrdən biri kənd təsərrüfatıdır. Bu sahəyə dövlət tərəfindən yüksək diqqət göstərilir, kənd təsərrüfatında məhsuldarlığın artırılması üçün böyük işlər görülür. Həm ənənəvi taxılçılıq, pambıqçılıq, baramaçılıq, çayçılıq inkişaf edir, həm də dünya bazarına çıxa biləcək badam, tütün, fındıqçılığın inkişaf etdirilməsi yönündə tədbirlər görülür.

Kənd təsərrüfatı məhsulları həm xammal kimi, həm də emal olunaraq xarici dövlətlərə ixrac olunur. Bir sıra ölkələrdə Azərbaycanın ticarət evlərinin açılması və bu burada Azərbaycan brendi altında məhsulların təqdim olunması bizim məhsullarımızın ixracını daha da stimullaşdırır. Bütün bunlar ölkəmizə valyuta gətirir.

Eləcə də, turizmin inkişafı da yüksək rəqəmlərlə ifadə olunur. Belə ki, cari ildə bu sahədə 2 milyard manatdan çox vəsait əldə edilib. Bu, turizm sahəsində indiyə qədər ən yüksək göstəricidir. Belə faktlar göstərir ki, ölkəmizdə turizmin potensialı böyükdür və gələcəkdə ölkəmiz bu sahədə daha böyük gəlirlər əldə edəcək.

***- Bu ilin ən mühüm hadisələrindən biri də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadə verilməsidir. Sizcə, bu layihənin əhəmiyyəti nədən ibarətdir?***

- Qeyri-neft sektorunun nəqliyyat-kommunikasiya istqaməti kimi bu məsələ çox önəmlidir. Haqlı olaraq Bakı-Tbilisi-Qars dəmir yolu xətti qədim İpək



Yolunun bərpasını təmin edən strateji layihə kimi səciyyələndirilir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yaxın illərdə 15-20 milyon ton yük daşınacaq. Bu xətt Azərbaycan üçün yalnız iqtisadi dividentlər gətirməyəcək, həmçinin, Azərbaycanın dünyada nüfuzunu daha yüksəldəcək, regionun iqtisadi-siyasi həyatında rolunu daha da gücləndirəcək. Bilirsiniz ki, artıq bir sıra dövlətlər bu xəttə qoşulmağa maraqlı olduğunu bildiriblər. Bu yöndə praktiki addımlar atılır. Bütün bunlar layihənin yüksək perspektivlərindən xəbər verir. Həmçinin, yaxın illərdə Qarsdan Naxçıvana dəmir yolunun çəkilməsi nəzərdə tutulur ki, bu da Naxçıvanın blokadadan çıxmasında mühüm rol oynayacaq.

***- Milli Məclisdə 2018-ci ilin dövlət büdcəsinə daxil olan sənədlər geniş müzakirələrdən sonra qəbul edildi. Gələn ilin dövlət büdcəsində sosial sahəyə ayrılan xərclər barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz ki, 2018-ci ilin büdcə zərfinə daxil olan sənədlər Milli Məclisdə geniş müzakirə edilərək qəbul olundu. Azərbaycanın iqtisadi potensialı imkan verdi ki, gələn ilin dövlət büdcəsinin gəlir və xərc hissəsi artırılsın. Gələn ilin dövlət büdcəsinin cari ilə nisbətən 20 faiz artırılması çox böyük göstəricidir.

Çox təqdirəlayiq haldır ki, büdcənin böyük hissəsi sosial xərclərə sərf olunacaq. Qeyd edim ki, gələn ilin dövlət büdcəsinin gəlirləri 20 milyard 127 milyon manat nəzərdə tutulur. Bu 2017-ci ilin proqnozu ilə müqayisədə 3 milyard 361 milyon manat çoxdur. Növbəti il üçün proqnozlaşdırılan ÜDM-in tərkibində büdcə gəlirlərinin xüsusi çəkisi cari illə müqayisədə 4,4 faiz artaraq 29 faiz təşkil edəcək. Dövlət büdcəsinin gəlirlərinin 9 milyard 31 milyon manatı və ya 44,9 faizi qeyri-neft sektoru üzrə daxilolmaların payına düşəcək. 2018-ci il dövlət büdcəsinin xərcləri cari ilin təsdiq olunmuş büdcə xərcləri ilə müqayisədə 2 milyard 965 milyon manat və ya 16,5 faiz çox olmaqla mütləq ifadədə 20 milyard 906 milyon manat məbləğində proqnozlaşdırılır.

2018-ci il üçün dövlət büdcəsi xərclərinin tərkibində sosialyönümlü xərclərin xüsusi çəkisi 36,6 faiz olacaq. Elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, sahələrinə 5 milyard 372 milyon manat vəsait nəzərdə tutulur. Bütövlükdə bu sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 25,7 faiz təşkil edəcək.

Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərclərinin maliyyələşməsi üçün 304 milyon manat vəsait nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 22 milyon manat çoxdur.

***- Musa müəllim, hazırda ölkəmizdə icbari tibbi sığorta sisteminin tətbiq olunması ilə bağlı pilot layihələr həyata keçirilir. Bu sistemin nə vaxtdan etibarən ölkə miqyasında tətbiqi gözlənilir?***

- 2018-ci ilin dövlət büdcəsində icbari tibbi sığorta ilə bağlı vəsait nəzərdə tutulur. Hesab edirəm ki, bu məsələ də önəmlidir. Hazırda Yevlax və Mingəçevirdə pilot layihələri uğurla davam edir. Gələn il icbari tibbi sığortanın tətbiqi ilə bağlı pilot layihələrinin əhatəsi genişləndiriləcək. Düşünürəm ki, biz artıq 2019-cu ilə icbari tibbi sığorta sistemini bütün ölkə üzrə tətbiq edə biləcəyik.

***- Bəs Azərbaycanda sosial xidmət sisteminin tətbiqində nə kimi yeniliklər mövcuddur?***

- Sosial xidmət sistemi modernləşir. Ehtiyacı olanlara xidmət artır, bu yöndə müəssisələr, qocalar evi, əlillər evi, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün evlər tikilib istifadəyə verilir. Və bu müəssisisələr müasir səviyyədə qurulur. Artıq bu yöndə ilk sığınacaqlar da açılıb. Ümumiyyətlə, bu məsələ həm dövlətin, həm də Heydər Əliyev Fondunun diqqət mərkəzindədir.

Rəsmi məlumatlarda da bildirilir ki, ölkədə sosial xidmətlər sisteminin əhatə dairəsi getdikcə genişlənir. "Hazırda "Sosial xidmət haqqında" Qanuna əsasən xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti və onlara qulluq göstərə biləcək əmək qabiliyyətli qohumları olmayanlar, sağlamlıq imkanları məhdud uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar, yaşayış yeri olmayanlar və digər qruplarla yanaşı, məişət zorakılığından zərər çəkənlər də sosial xidmətlərlə təmin edilirlər".

***- Sizcə, qarşıdan gələn 2018-ci il ərzində ölkəmizi sosial-iqtisadi cəhətdən hansı perspektivlər gözləyir?***

- Hesab edirəm ki, bütövlükdə 2017-ci il xalqımız və dövlətimiz üçün uğurlu il oldu. Əlbəttə ki, qazanılan uğurlar qarşıdakı illərdə daha böyük nailiyyətlərin əldə edilməsini şərtləndirir. Bu baxımdan, 2018-ci ilin daha perspektivli olacağı gözlənilir. Düşünürəm ki, gələn il əhalinin sosial müdafiəsinin gücləndirilməsi baxımından, yeni əməkhaqları və pensiyaların artırılması, məşğulluğun daha geniş şəkildə təmin edilməsi cəhətdən yeniliklər olacaq. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət əhalinin rifahının daha da yüksəlməsinə xidmət edir.

Strateji Yol Xəritəsində göstərildiyi kimi 2025-ci ildə Azərbaycan dünyanın sosial dövlətlər sırasına qoşulmalıdır. Bu qarşımızda dayanan böyük hədəfdir. Şübhəsiz ki, xalq-Prezident birliyi nəticəsində bu hədəfə nail olunacaq.

## Siyavuş Novruzov: "Növbədənkənar seçkilərlə bağlı məlumatlar təxribatdır"



Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, deputat Siyavuş Novruzov Seçki Məcəlləsinə edilən dəyişikliklərlə bağlı bəzi şəxslərin növbədənkənar seçkinin keçiriləcəyi barədə məlumatlar yayaraq, vətəndaşları çaşdırdığını bildirib. SİA-nın məlumatına görə, Milli Məclisin dünən keçirilən iclasında Seçki Məcəlləsinə dəyişikliklərin müzakirəsində çıxış edən S.Novruzov bildirib ki, Amerikada yaşayan Sevinc Osmanqızı şayiə yayır ki, Azərbaycanda mart ayının ortalarında prezident seçkiləri keçiriləcək və Milli Məclis bu məsələni müzakirəyə çıxarır.

"Bu, sırf təxribatdır və o, təxribatla məşğuldur. Qanunda göstərilib ki, prezident seçkiləri fəaliyyətdə olan prezidentin səlahiyyət müddəti başa çatdıqdan sonra, oktyabr ayının üçüncü həftəsinin üçüncü günündə keçirilir. Burada hər hansı fövqəladə hal, hadisə baş verməyib. Götürün Konstitusiyanı, Seçki Məcəlləsini oxuyun. Hər fikirdən yeni fikir çıxarırlar və biz də bütün fəaliyyətimizi təkzib verməyə həsr edirik", - deyə, S.Novruzov bildirib.

## Mübariz Qurbanlı vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. SİA-nın məlumatına görə, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dekabrın 19-da Yevlax şəhərində Mingəçevir, Ağdaş, Yevlax və Bərdə rayonlarının sakinlərini qəbul edəcək. Qəbul Yevlax şəhəri Heydər Əliyev Mərkəzində (Yevlax şəhəri, Nizami küçəsi, 61) saat 11:00-da keçiriləcək. Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

## Ziyafət Əsgərov: "Ordunun daxili siyasətə aidiyyəti yoxdur"



Milli Məclisin dünən keçirilən iclasında birinci vitse-spiker, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov mətbuatın və QHT-lərin Silahlı Qüvvələr üzərində nəzarətinə, məhdudiyyətin aradan qaldırılmasına edilən etirazlara münasibət bildirib. SİA-nın məlumatına görə, Z.Əsgərov deyib ki, mətbuatın ordudan yazmasına Müdafiə Nazirliyinin mətbuat xidməti vasitəsi ilə lazımı şərait yaradılır və bundan artığını etmək düzgün deyil. O, ABŞ-ın İraqdakı əməliyyatları zamanı yaranmış vəziyyəti nümunə gətirib: "ABŞ-ın İraqda müharibə zamanı etdiyi kimi, biz də deyək ki, ümumiyyətlə, ordudan yazmaq lazım deyil? İstəyirsiniz belə edək? İndi ABŞ kimi deyək ki, gedin işinizlə məşğul olun, biz müharibə aparırıq. Vitse-spiker zaldakı jurnalistlərə üzünü tutaraq, "hörmətli jurnalistlər, nə var, onu yazın" söyləyib. Z.Əsgərov bildirib ki, Azərbaycan Ordusu dünyanın ən demokratik ordularındandır: "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun layihəsində ordunun siyasi proseslərə müdaxilə imkanlarının olacağını əks etdirən müddəa barədə fikirlər də düz deyil. Silahlı Qüvvələr təkcə ordudan ibarət deyil, ordunun daxili siyasətə aidiyyəti yoxdur. Daxildəki hansısa məsələlərlə Daxili Qoşunlar məşğul olacaq, ordu yox". Z.Əsgərov Azərbaycan Ordusuna düşməni öz ərazimizdən qovmaqla yanaşı, işğalçı ölkə ərazisində təqib etməsi səlahiyyətinin verilməsin təklif edən deputat Tahir Kərimlinin fikirlərinə də reaksiya verib: "Tahir müəllim, o halda bu, işğal sayılacaq".

# Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır



***Bu gün Azərbaycan regional lider, bir sıra qlobal məsələlərdə mühüm geosiyasi faktor, habelə beynəlxalq imici durmadan artan nüfuzlu ölkədir. Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan dörd layihədən ibarət ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP) "Cənub Qaz Dəhlizi" kimi milyardlarla investisiya yatırılan layihələrin əsas təşəbbüskarlarından biridir.***

Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi, bütün bu layihələr, bir daha sübut edir ki, Azərbaycan son 14 il ərzində böyük və şərəfli yol keçib. İri sərmayəçi kimi mövqeyini möhkəmləndirən Azərbaycan regionda xarici ölkələrin iqtisadiyyatına yatırılan investisiyaların həcminə görə bu gün MDB-də aparıcı dövlətlərdən birinə çevrilib. Dünyanın nüfuzlu iqtisadi tədqiqat mərkəzlərinin hesabatlarında respublikamız bölgədə investisiyaların coğrafi mərkəzinə çevrilən ölkə kimi səciyyələndirilir.

Dekabrın 1-də Bakıda "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci Nazirlər Konfransında çıxış edən Prezident İlham Əliyev bir daha Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən meqalayihələri dəyərləndirib. Azərbaycanın iştirakı və təşəbbüsü ilə reallaşdırılan layihələr, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Neft Boru Kəməri və Cənubi Qafqaz Qaz Kəməri vasitəsilə Xəzər dənizinin enerji ehtiyatları yaxın region ölkələrinə və Avropaya nəql edilir. Bu da enerji ehtiyatlarının dünya bazarlarına ixracının inkişafı ilə yanaşı, ölkənin tranzit imkanlarının genişləndirilməsi üçün strateji əhəmiyyətə malikdir. Hazırda Azərbaycan təxminən dünyanın 30 ölkəsinə neft, qaz və neft məhsulları ixrac edir. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Boru Kəməri və Cənubi Qafqaz Qaz Kəməri vasitəsilə Xəzər dənizinin enerji ehtiyatları yaxın region ölkələrinə və Avropaya nəql edilir. Bu da enerji ehtiyatlarının dünya bazarlarına ixracının inkişafı ilə yanaşı, ölkənin tranzit imkanlarının genişləndirilməsi üçün strateji əhəmiyyətə malikdir.

Bununla yanaşı, ötən ay Avropa Komissiyası "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan layihələri yenidən Avropa İttifaqının Ümumi Maraq Layihələri (PCI) siyahısına daxil edib. Həmin layihələr Azərbaycan təbii qazını Gürcüstan-Türkiyə sərhədinə qədər daşıyacaq Cənub Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG), qardaş ölkədən keçərək, Yunanıstanadək uzanacaq Transanadolu (TANAP) və Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliya sahillərinə çıxacaq Transadriatik (TAP) Boru Kəməridir.

Prezident İlham Əliyev Brüsseldə Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasındakı çıxışında enerji və nəqliyyat təhlükəsizliyinin Azərbaycan üçün vacib maraq kəsb edən əsas prioritet sahələr olduğunu bildirərək "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa qitəsinin enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirəcəyini vurğulayıb: "Cənub Qaz Dəhlizi" uğurla inkişaf edir. Bu layihənin dəyəri 40 milyard ABŞ dollarından artıqdır və bizə əlavə həcmdə təbii qaz hasil etməyə və bunu Azərbaycandan Avropa bazarlarına nəql etməyə imkan verəcək. 3500 kilometrlik qaz xətti yeni marşrut olacaq və Avropa bazarlarına yeni mənbədən qaz nəql edəcək. Bu, enerji təhlükəsizliyi siyasəti ilə bərabər, enerji şaxələndirilməsi siyasətidir, çünki Azərbaycanın qaz yataqlarından hasil ediləcək qaz Avropanın yeganə yeni təbii qaz mənbəyi olacaq və sözsüz ki, Avropa qitəsinin enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirəcək. Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir və bu, qarşıdakı onilliklərdə Avropaya təbii qaz nəql etmək üçün yetərli olacaq".

Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi" Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Bu boru xətti ilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır. Artıq "Şahdəniz-2" layihəsi üzrə işlər - mühəndis işləri, təchizat, tikinti işləri və istismar sınaqları da daxil olmaqla, ümumilikdə, 97 faizdən çox tamamlanıb və bu layihədən ilk qazın 2018-ci ildə əldə edilməsi planına uyğundur. Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsi üzrə işlərin isə 98 faizi görülüb. Azərbaycanda əsas kəmər xəttinin inşası işləri tamamlanmaq üzrədir. Təqribən 419 kilometr uzunluğunda borular artıq qaynaq edilib, 380 kilometr boru xəndəyə endirilib və üstü örtülüb. Planlaşdırılmış 5 üfüqi qazma işinin hamısı tamamlanıb. Bundan əlavə, 6 hidro-sınaq bölməsində işlər bitib.

TANAP layihəsi üzrə ümumi işlərin 86 faizi tamamlanıb. 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün işlərin 93 faizi, 2019-cu ilin sonunda Türkiyədən keçməklə, Avropaya təbii qazın verilməsi üçün tamamlanması nəzərdə tutulan işlərin isə 70 faizi görülüb. Uzunluğu 1850 kilometr olan TANAP layihəsinin dəyəri hazırda 7,99 milyard ABŞ dollarıdır. TANAP üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək, ümumilikdə, 6,2 milyard dollar olacağı nəzərdə tutulur.

Təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulan TAP Qaz Boru Kəməri üzrə işlərin isə 57 faizdən çoxu icra edilib. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" Konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyə və Gürcüstanla həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə, bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Boru kəmərinin dəniz hissəsi isə, 2018-2019-cu illərdə inşa ediləcək.

Bir sözlə, göstərilən faktorlardan aydın olur ki, Azərbaycan regional və qlobal miqyasda enerji təhlükəsizliyi məsələsində aparıcı aktor rolunu oynayır. Hətta bu gün reallaşdırılan layihələr, onu deməyə əsas verir ki, Azərbaycanın bu rolu bundan sonra daha da artacaq. Eyni zamanda, enerji təhlükəsizliyi məsələlərini tam şəkildə həll edən müstəqil Azərbaycan bu gün dünyada neft və qaz hasil edən dövlət kimi tanınır və ölkə iqtisadiyyatı, respublikanın gələcək inkişafı üçün neft sənayesi və neft-qaz sektoru həmişə həlledici rol oynayacaq.

***"Səs" Analitik Qrupu***

# Azərbaycanda investisiya təşviqi mexanizmi uğurla fəaliyyət göstərir

## *Biznes mühitinin yaxşılaşması, yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, qeyri-neft sənayesində istehsalın artırılması bunun əyani sübutudur*

***Azərbaycan müstəqillik qazandıqdan sonra sərbəst bazar iqtisadiyyatı yolunu seçdi. Bir iqtisadi idarəetmədən digər formaya keçid zamanı yeni idarəetmədə üzə çıxan iqtisadiyyatın kapitallaşması kimi problemlərin həlli, eləcə də, istehsal sahələrinin müasir texnika və texnologiyalarla təchiz olunması üçün külli miqdarda vəsaitin qoyuluşu üçün Azərbaycan dövləti xarici investisiyalardan istifadə etməyə qərar verib və həmin investisiyalar, öncə, ölkənin neft sənayesinin bazar prinsiplərinə uyğun qurulmasına sərf edildi. Belə ki, "Əsrin Müqaviləsi"ndən ölkəmizə daxil olan vəsaitdən ilk dəfə infrastruktur layihələrin icrasında istifadə olundu. Çünki ölkənin ümumi inkişafı infrastruktur layihələrindən keçirdi. Yeri gəlmişkən, qeyd edək ki, hazırda Azərbaycanda əksər infrastrukturun dünyanın inkişaf etmiş ölkələri səviyyəsində olması, məhz bunun nəticəsidir.***





Ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş investisiyaların cəlb edilməsi və təşviqi istiqamətində həyata keçirilən siyasət bu gün Prezident İlham Əliyevin rəhbərliyilə uğurla davam etdirilir. Dövlət başçısı 18 yanvar 2016-cı ildə imzaladığı "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın məqsədi xarici və yerli investisiyaların cəlb edilməsi, sənaye istehsalının artırılması kimi mühüm strateji hədəflərə çatmaq idi.

Fərmana uyğun olaraq, sahibkarlara investisiyanın təşviqi və təsdiqedici sənəd verilir. Həmin sənədi alan sahibkarlar Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda nəzərdə tutulan güzəştlərdən istifadə etmək hüququ qazanır. Bununla, onlar mənfəət və gəlir vergisinin 50 faizindən, əmlak və torpaq vergisi, idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə ƏDV-dən və 7 il müddətində idxal rüsumlarını ödəməkdən azad olunurlar.

Ümumiyyətlə, hazırda biznes mühitinin yaxşılaşması, yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, eyni zamanda qeyri-neft sənayesində istehsalın artırılması üçün investisiya təşviqi mexanizmi uğurla fəaliyyət göstərir. İndiyədək 160 sahibkarlıq subyektinə 182 investisiya təşviqi sənədi verilib. Həmin sənədə uyğun reallaşdırılan layihələr çərçivəsində yerli istehsala 1,6 milyard manat investisiya yatırılması nəzərdə tutulur. Bu layihələrin icrası nəticəsində, ölkəmizdə əlavə 11 mindən çox iş yeri açılacaq. Yeni layihələrin icrasının coğrafiyası genişdir. Belə ki, həmin layihələrin 1-i Bakıda, 66-sı paytaxtətrafı qəsəbələrdə və Abşeron rayonunda, 115-i isə digər iqtisadi rayonlarda həyata keçiriləcək. Bu da ölkənin ümumi inkişafına yönəldilən siyasətin hədəfidir.

Əlbəttə ki, investisiya təşviqi proqramına uyğun olaraq istifadəyə verilən müəssisələrin xarakteristikası da maraq doğurur. Belə ki, 182 investisiya təşviqi sənədinin 70-i kənd təsərrüfatı, 112-si isə sənaye yönümlü layihələrdir. Ən çox investisiya təşviqi sənədi intensiv bağçılıq, bostançılıq, çayçılıq, qida məhsullarının, rezin və plastmas məmulatlarının istehsalı sahələrində reallaşdırılır. İnvestisiya təşviqində aqrar sektora da xüsusi önəm verilir. Bunun nəticəsidir ki, reallaşdırılan layihələrdən 70-i birbaşa kənd təsərrüfatına məxsusdur.

Əlavə olaraq, digər layihələrin də müəyyən hissəsi dolayısı ilə aqrar sektorla bağlıdır. Onu da, qeyd edək ki, indiyədək investisiya təşviqi sənədləri əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların güzəştli şərtlərlə idxalı üçün 139 sahibkarlıq subyektinə 744 təsdiqedici sənəd təqdim olunub. Həmin sənədlər əsasında sahibkarlıq subyektləri tərəfindən əldə olunan ümumi güzəştin məbləği 30,5 milyon dollar dəyərindədir. Bu güzəştlər məhsuldarlığın artmasına və keyfiyyətin yüksəldilməsinə xidmət edir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib ki, bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub: "Bu gün sərmayə qoyuluşu demək olar ki, bütün ölkələrdə azalır. Çünki maliyyə sıxıntıları, problemlər var. Amma Azərbaycana sərmayə qoyulur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Yəni xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Nəyə görə? Təkcə ona görə yox ki, bizdə yaxşı investisiya iqlimi var. Ona görə ki, Azərbaycan bu gün sabitlik məkanıdır və investorlar ancaq sabit olan yerlərə sərmayə qoyurlar. Sabit olan ölkələrin sayı kəskin azalır. Ona görə, əminəm ki, gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcək".

Bir sözlə, investisiya təşviqi proqramının icrası ölkədə istehsalın və ixracın artmasına imkan verməklə yanaşı, xarici sərmayələrin də ölkəmizin iqtisadiyyatına cəlb olunmasını şərtləndirir. Bu da qeyri-neft, o cümlədən, aqrar sektorun istehsal və ixrac imkanlarını artırır, ölkədən valyutanın çıxmasının qarşısını alır, ölkəyə əlavə valyuta qazanmağa imkan yaradır.

***"Səs" Analitik Qrupu***

# Ermənistanın xəritədən silinəcək gününə az qalıb

*Karapet Rubinyan: "Xalq Sarkisyanın cinayətkar rejimindən xilas olmalıdır"*

***Son vaxtlar Ermənistanın paytaxtı Yerevanda və bölgələrdə Serj Sarkisyanın həyata keçirdiyi uğursuz siyasətə, xüsusilə Qarabağda baş verən əsgər ölümlərinə qarşı izdihamlı aksiyaların, etiraz piketlərinin ardı-arası kəsilmir.***

Misal üçün, Ermənistanın "tert.am" saytının yaydığı məlumatda bildirilir ki, narazı vətəndaşlar "Serjə yox deyək!", "Bu, bizim deyil, rejimin müharibəsidir", "Silahlardan əl çəkin!", "Rejimin siyasəti ölkəni boşaldır" kimi şüarlar səsləndirirlər. Yerevanda və bölgələrdə tez-tez aksiyaların keçirilməsinə əhalinin gündən-günə ağırlaşan sosial şəraiti də öz təsirini göstərir.

### Siranuş Hayrapetyan: "Bu ölkənin iqtisadiyyatında hər hansı müsbət irəliləyişdən belə söhbət gedə bilməz"

Xüsusilə bahalaşma ölkənin bütün regionlarında müşahidə edilir. İstər qida, istərsə də enerji daşıyıcılarının bahalaşması vəziyyəti kritik həddə çatdırıb. Ermənistan Milli Statistika Xidmətinin məlumatında o da vurğulanır ki, ərzaq məhsullarının artımı bütün iri rayon və şəhərlərdə müşahidə edilir. Yalnız bir şəhərdə çörəyin qiyməti 0,2 faiz aşağı düşmüşdü ki, sonradan köhnə qiymətlər yenidən geri qaytarıldı. Ermənistan paytaxtında isə, çörək və un məmulatlarının qiyməti isə 0,5 faiz artıb.



Ancaq Ermənistandakı ağır sosial vəziyyət insanların təkcə gündəlik həyatında deyil, digər sahələrində də özünü göstərir. Nəticədə, "Böyük Ermənistan" indi artıq kənd-kənd boşalır. Ermənistan Milli Konqresinin nümayəndəsi Siranuş Hayrapetyan jurnalistlərlə görüşündə iqtisadi şəraitin dözülməzliyi barədə demişdi ki, "bu ölkənin iqtisadiyyatında hər hansı müsbət irəliləyişdən belə söhbət gedə bilməz". Onun sözlərinə görə, vəziyyət gələcəkdə daha da pis olacaq. İqtisadiyyatın fəaliyyəti üçün labüd olan mexanizmlərin artıq işləməməsi, bu fikri söyləməyə əsas yaradır.

Həyata keçirdiyi işğalçılıq siyasəti üzündən hazırda regional təcrid vəziyyətinə düşən Ermənistanda şərait getdikcə daha gərgin mərhələyə qədəm qoyur. Xüsusən də, sürətlə davam edən bahalaşma insanların sosial durumunun daha acınacaqlı hal almasına rəvac verir. Bu fonda qabarıq müşahidə edilən odur ki, iqtisadiyyatı ildən-ilə tənəzzülə uğrayan Ermənistanda inflyasiya sürətlə dərinləşməkdədir. Məsələn, bu ölkədə konkret ərzaq məhsullarının qiyməti son bir ildə 10 faiz, qeyri-ərzaq məhsullarının qiyməti isə, 5 faiz bahalaşıb. Həmçinin, əhaliyə göstərilən xidmətlərin qiymətlərində də bahalaşmalar davam edir. Vəziyyətdən çıxış yolunu isə ermənilər müxtəlif xarici ölkələrə qaçmaqda görürlər. Onu da qeyd edək ki, bu gün Avropanın Ermənistana investisiya qoyuluşunu azaltması vəziyyəti daha da ağırlaşdırır. "Johovurd" qəzetinin verdiyi məlumata görə, ötən il Ermənistan iqtisadiyyatının real sektorunda investisiyaların həcmi azalıb.

### Sabiq spiker: "Sarkisyan kimi prezidentin və onun quldurlarının belə hallara qarşı hansısa addımlar atacağını düşünmək sadəlövhlük olardı"

Bu arada Ermənistan parlamentinin sabiq spikeri, hazırda müxalifət cinahında yer alan Karapet Rubinyan da vəziyyətin təhlükəli həddə çatdığını bildirir, ölkənin ağır sosial-iqtisadi böhrana yuvarlanmasının kökündə hakimiyyətin yanlış siyasətinin və məmurların biznes maraqlarının durduğunu vurğulayır. Bu kontekstdə, o, Ermənistan konstitusiyasına zidd olaraq, deputatların bizneslə məşğul olmasına diqqət çəkir. Sabiq spiker bildirir ki, əgər hakimiyyət xalq tərəfindən özünə qarşı etimad görmək istəyirsə, korrupsiya hallarına qarşı mübarizə aparmalıdır: "Lakin belə mübarizənin indiki hakimiyyət dövründə heç vaxt olmayacağı şübhəsizdir. Çünki qanunazidd olaraq deputatların bizneslə, inhisarçılıqla məşğul olmasına Serj Sarkisyan iqtidarı özü şərait yaradır. Elə hakimiyyətin digər qollarındakı məmurlar da iri biznesin əsas təmsilçiləridir. Buna görə də, Sarkisyan kimi prezidentin və onun quldurlarının belə hallara qarşı hansısa addımlar atacağını düşünmək sadəlövhlük olardı. İndi xalq ya bu cinayətkar rejimdən xilas olmalıdır, ya da onun öz qanunsuz əməllərinin miqyasını necə genişləndirməsinə şahidlik etməlidir".

İqtisadçı ekspertlər də deyirlər ki, Ermənistanın digər ciddi problemlərindən biri yoxsulluğun getdikcə dərinləşməsidir. Ermənistan Mərkəzi Bankının hesablamalarına görə, təqaüdçülərin 75-80 faizindən çoxu yoxsulluq həddində yaşayır. Rəsmi statistikada ölkə əhalisinin 25,4 faizinin yoxsulluq həddində yaşadığı öz əksini tapsa da, BMT-nin İnkişaf Proqramının hesabatına bu göstərici 50 faizə (!) bərabərdir. Hətta rəsmi statistika belə Ermənistanda hər üç, ya da dörd nəfərdən birinin yoxsulluq həddində yaşadığını göstərir.

Beləliklə, Ermənistan hakimiyyətinin yaratdığı acınacaqlı vəziyyət bu ölkədə tezliklə xaosun, hərc-mərcliyin, son nəticədə isə, xalq üsyanının başlanacağından xəbər verir. Rəsmi Yerevan isə hakimiyyətinin ömrünü təmas xəttində atılan güllələr hesabına uzatmağa çalışır. Ancaq bunun da bir gün Ermənistana ciddi fəsad yaradacağını istisna etmək olmaz. Çünki fakt budur ki, bu ölkə daxildən parçalanmaqla yanaşı, həm də xəritədən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalıb.

**R.RƏSULOV**

# Pirallahıda növbəti ağacəkmə aksiyası keçirilib



Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadəsi məsələsi ölkəmizdə aparılan sosial-iqtisadi islahatlarda mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pirallahı rayonunun yaradılmasına dair qanunun tətbiqi barədə Sərəncamı imzaladıqdan sonra, bu rayonda ətraf mühitin qorunması, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması məqsədi ilə rayonun bütün ərazisi boyu, mütəmadi olaraq, geniş miqyaslı abadlıq, yaşıllaşdırma işləri həyata keçirilir və bu işlər hazırda davam etdirilməkdədir. Bu istiqamətdə "700 yüz min ağac əkək" aksiyası çərçivəsində Pirallahı rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının birgə təşəbbüsü ilə növbəti ağacəkmə kampaniyası keçirilib. Aksiyada RİH əməkdaşları, YAP Pirallahı rayon təşkilatının fəalları, eləcə də, ictimaiyyət nümayəndələri iştirak etdilər. Pirallahı qəsəbəsində Süleyman Bağırov küçəsində yerləşən parkda 200-dən çox yeni ağaclar və gül kolları əkilib, ərazidə təmizlik işləri aparılıb və ağaclara aqrotexniki qulluq göstərilib. Kampaniya uğurla davam etdirilir.



**RÖVŞƏN**

# Mətbuat Şurasının sədri Tiflisdə beynəlxalq toplantıda iştirak edib

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Gürcüstanın paytaxtı Tiflisdə Şərq Tərəfdaşlığına üzv ölkələrin jurnalistlərinin növbəti toplantısında iştirak edib. Avropa Şurasının və Avropa Birliyinin təşkilatlığı ilə keçirilmiş tədbirdə MŞ sədri çıxış edərək rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən, söz və ifadə azadlığı ilə bağlı xarakterik tendensiyalardan söz açıb. Ə.Amaşov bildirib ki, Şuranın başlıca missiyası media orqanları ilə bağlı şikayətlərin araşdırılmasından ibarətdir. Bu xüsusda o, şikayətlərin strukturuna, hansı tələblərin yer almasına, MŞ-nin qərar və rəylərinin şikayətlərdəki tələblərə nə dərəcə adekvat olmasına diqqət çəkib. Ə.Amaşov həmçinin internet media orqanlarının fəaliyyətindən narazılıqların, onların peşə prinsiplərinə etinasız yanaşmalarının ənənəvi medianı üstələməsini xarakterik hal kimi vurğulayıb. MŞ sədri eyni zamanda praktika qarşılaşılan bir sıra



məqamlar barədə fikirlərini bölüşərək jurnalistikada peşə etikası ilə əlaqədar standartlara müxtəlif yanaşmaların olduğunu bildirib. Mövcud istiqamətdəki yeniliklərin təbliğinə daim ehtiyacın duyulduğunu söz və ifadə azadlıqlarının təminatında vacib məqamlardan biri olaraq önə çəkib. Qeyd edək ki, toplantıda Şərq Tərəfdaşlığı Ölkələri Jurnalistləri Birliyinin regionda söz və ifadə azadlığı ilə bağlı məsələlərə həssaslığının artırılması yolları ətrafında müzakirələr aparılıb, bununla bağlı konkret situasiyalar təhlil olunub. Müzakirələr gedişində təşkilatın informasiya portalının yaradılması və peşə davranışı qaydalarının hazırlanması barədə qərar qəbul edilib. Onu da deyək ki, toplantıda Ə.Amaşovla yanaşı MŞ İdarə Heyətinin üzvü, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli və "Baku Network"un Ekspertlər Şurasının rəhbəri Elxan Ələsgərli də iştirak edib.

# Müsavatda gərginlik davam edir

*Başqan müavini Elman Fəttahın istefasının ardınca digər məsələlər də üzə çıxır*

***Müsavat partiyasının başqan müavini Elman Fəttahın vəzifəsindən istefa verməsi partiya rəhbərliyində ciddi fikir ayrılıqlarının olduğunu sübut edir. Bu fakt həm də başqan Arif Hacılının və sabiq başqan İsa Qəmbərin bir çox məsələlərdə müavinlərlə və funksionerlərlə ortaq məxrəcə gəlməmələrinin təsdiqidir. Ümumiyyətlə, avtoritar idarəçilik sistemi bir çox müsavatçıların kəskin narazılıqları ilə müşahidə olunmaqdadır. Bu baxımdan, davamlı istefaların və partiyadaxili parçalanmaların labüdlüyü də ortadadır.***

## Arif Hacılı klanı artıq bir neçə dəfə Tofiq Yaqublunun partiyadan xaric olunması istiqamətində tələblər irəli sürüb

Bu arada, Müsavat partiyasının "Milli Şura"da qalan yeganə təmsilçisi Tofiq Yaqublunun özünü daha çox AXCP sədri Əli Kərimlinin yanında görməsi, Müsavatdan çox "Milli Şura"nın iclaslarına qatılması vəziyyətin daha da gərginləşməsində əsas olub. Əbəs yerə deyil ki, A.Hacılı klanı, artıq bir neçə dəfə T.Yaqublunun partiyadan xaric olunması istiqamətində tələblər irəli sürüb. Sadəcə, sabiq başqan, "MSDM"-in sədri İ.Qəmbər bu məsələdə nədənsə gözləmə mövqeyi tutmağı üstün bilib. Ancaq bunun belə davam edəcəyini də demək olmaz. Çünki fakt budur ki, T.Yaqublu özünü Müsavatdan daha çox ya AXCP, ya da "Milli Şura"da görür.

Yeri gəlmişkən, T.Yaqublunun yaxın qohumu Alya Yaqublu da əmisi oğlunu müdafiə etmək məqsədi ilə sosial şəbəkədə kampaniya başladıb. Düzdür, bu məsələdə yuxarıda qeyd edilən fikirlər yer almasa da, ciddi ittihamlar ortadadır. Belə ki, A.Yaqublu özünün



facebook səhifəsində qalmaqallı status paylaşıb və partiya funksioneri son illərdə gündəmi zəbt edən Müsavat, AXCP və digər müxalif qurumların saxta partiya vəsiqəsi alverini, yəni mühacirət üçün partbiletlərin satılmasını yenidən gündəmə gətirib. Misal üçün A.Yaqublu yazır ki, biletsatanlar (Müsavatın A.Hacılı klanı-R.N.) ömrünü müxalifətdə qoymuş birini hakimiyyətə işləməkdə ittiham edirlər. Məhz buradan da, açıq-aydın görünür ki, partiyadakı qaragüruhçulara qarşı mübarizədə özünü T.Yaqublunun yanında görən A.Yaqublu açıq savaş elan edib.

## İsa Qəmbər növbəti dəfə başqanlıq iddiası irəli sürməyəcəksə, yenisi kim olacaq - Arif Hacılı, Tofiq Yaqublu, yoxsa Yadigar Sadıqov?

Ortada digər maraq doğuran məqam, bir müddət sonra, daha dəqiq desək 10 aydan sonra Müsavatda növbəti başqan seçkilərinin keçrilməsinin reallaşdırılmasıdır. Ötən başqanlıq seçkilərindən sonra baş verən saxtakarlığın nəticəsi bu gün də davam edir. Həmin faktor, bilavasitə sözügedən məsələdə özünü açıq-aydın göstərir. Artıq partiyadaxili qruplaşmalar da qurultaya qədər öz planları ətrafında hərəkətə keçiblər. Burada, xüsusilə üç qrupun adı hallanır ki, onlara hazırkı başqan A.Hacılı, başqan müavini T.Yaqublu və daha bir başqan müavini Yadigar Sadıqovun rəhbərlik etdiyi bildirilir. Sirr deyil ki, bu şəxslərin üçü də başqanlığa iddiaçıdırlar və bir-birilərinə yarım qarış da yol vermək fikrində olmadıqları göz önündədir. Müsavatdan mediaya sızan xəbərə görə, hətta formalaşan qruplardan agah olan A.Hacılının partiya divanının son iclaslarının birində keçmiş başqan, MSDM rəhbəri İ.Qəmbərin başqanlığa namizəd olmayacağı təqdirdə, yenidən başqan olacağını qətiyyətlə bildirməsi sözügedən narazılıqların pik həddə çatdığını sübuta yetirir.

Məhz belə bir ərəfələrdə Müsavat partiyasında uzun illər fəaliyyət göstərmiş sabiqlərin də adlarının hallanması təşkilatda kəskin qarşıdurmaların yaranmasına xidmət etdiyini isbatlamış olur. Misal üçün, bu gün T.Yaqubluya qarşı partiya daxilində düşmənçilik münasibətlərinin formalaşmasına səbəb olacaq daha bir amil Müsavatın son qurultayında onun həbsxanadan açıq şəkildə başqanlığa namizəd Qubad İbadoğlunu dəstəkləməsi olub...

## ADR hərəkatının sədri Qubad İbadoğlu Tofiq Yaqublunu müdafiə edir və əlində də kompromatları var

Bu gün "ADR" adlı hərəkat yaratmış Q.İbadoğlu ilə T.Yaqublunun aralarındakı müsbət münasibətləri qalmaqda davam edir. Bu münasibətlər fonunda Müsavatın növbəti başqanlığına namizəd olacaq T.Yaqubluya ən böyük kənar dəstək Q.İbadoğludan gələ bilər. Çünki bu gün Müsavat haqqında, yəni partiyanın mövcud və sabiq başqanlığı haqqında ən çox kompromatlar da "DR"hərəkatının sədrindədir.

Nəticə etibarilə, faktlar yavaş-yavaş üzə çıxır və belə davam edərsə, Müsavatın parçalanma süreti daha da artacaq. Xüsusilə, gələn ilin sentyabr-oktyabr aylarında keçirilətcək başqanlıq seçkiləri sözügedən faktora təkan verəcək.

***Rövşən NURƏDDİNOĞLU***



# "Azərbaycanda tərcüməçi hazırlığı və tərcümə bazarı" mövzusunda III Milli Tərcümə Forumu keçirilib

***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi və Azərbaycan Gənc Tərcüməçilər Assosiasiyasının təşkilatçılığı ilə 15 dekabr 2017-ci ildə "Park İnn" otelində "Azərbaycanda tərcüməçi hazırlığı və tərcümə bazarı" mövzusunda III Milli Tərcümə Forumu keçirilib. Tədbirin məqsədi Azərbaycanda tərcümə sənətini təşviq etmək, bu sahənin hazırlığına töhfə vermək, tərcüməçilər arasında şəbəkələşməni gücləndirmək və bu istiqamətdə gənclərin peşəkar kimi formalaşmasına töhfə verməkdir.***

Forumda tərcüməçilər, dilçilər, beynəlxalq təşkilat və səfirliklərin, eləcə də, dövlət və qeyri-hökumət qurumlarının tərcümə və dil məsələləri ilə əlaqəli nümayəndələri iştirak ediblər.

Forumun "Tərcüməçi hazırlığı və tərcümə bazarı: tələb və təklif" mövzusundakı birinci hissəsində AGTA-nın sədr müavini İsrafil Xakiyev, Azərbaycan Dillər Universitetinin dosenti Fialə Abdullayeva, Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin nümayəndəsi Nəriman Əbdürrəhmanlı və sərbəst tərcüməçi Elnur Hüseynov təqdimatla çıxış ediblər. Təqdimatlarda tərcüməçi hazırlığı və tərcümə bazarının bugünkü vəziyyəti ilə bağlı müzakirələr aparıblar.

Günün ikinci yarısında tədbir paralel sessiyalarla davam edib. Belə ki, müxtəlif sahələri əhatə edən paralel sessiyalarda peşəkar tərcüməçilər Mətin Axundlu, İsrafil Xakiyev, İsmayıl Cəbrayılov və Elnur Hüseynov tərcüməçilər üçün protokol qaydaları, etik davranış qaydaları, marketinq, eləcə də, müasir kompüter əsaslı tərcümə alətləri barədə biliklərini və təcrübələrini paylaşıblar.

Qeyd edək ki, AGTA 2014-cü ildən Beynəlxalq Tərcüməçilər Federasiyasının tamhüquqlu üzvüdür.

***NƏZAKƏT***

# BSU-da "Elçinin "Baş" romanı struktur-funksional təhlil müstəvisində" adlı monoqrafiyanın təqdimat mərasimi olub

***Bakı Slavyan Universitetində ədəbiyyatşünas-tənqidçi, professor Nizami Tağısoyun "Elçinin "Baş" romanı struktur-funksional təhlil müstəvisində" monoqrafiyasının təqdimat mərasimi keçirilib. Mərasimi giriş sözü ilə BSU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, professor Rəhilə Qeybullayeva açıb.***

Təqdimat mərasimində AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, professor Məmməd Əliyev, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Yaradıcılıq şöbəsinin müdiri, professor Vüqar Əhməd, aparıcı elmi işçi, professor Baba Babayev, ADPU-nun professorları Himalay Qasımov, Elman Quliyev, Təyyar Salamoğ-



lu, Yaqub Babayev, professor Abid Tahirli, BSU-nun Azərbaycan filologiyası və jurnalistika fakültəsinin dekanı, dosent Nuridə Novruzova və filologiya və xarici dil müəllimliyi fakültəsinin dekanı, professor İlyas Həmidov, BSU-nun professorları Naidə Məmmədxanova, Rəhilə Quliyeva, Rüstəm Kamal və başqaları çıxış ediblər. Natiqlər Nizami Tağısoyun adıçəkilən monoqrafiyasında əsərin struktur-funksional xüsusiyyətlərinin, Elçinin "Baş" romanının poetikasının doğru, dürüst nəzəri-metodoloji yöndən araşdırıldığını bildiriblər.

Çıxışçılar Nizami Tağısoyun monoqrafiyasının məziyyətlərindən danışıb, monoqrafiyada qoyulan məsələlərin ədəbiyyatşünaslığımızda, nəzəriyyə sahəsində dəyərli və orijinal əsər olduğunu qeyd ediblər.

Sonda tədbirdə iştirak edən BSU-nun tələbə və magistrantları Nizami Tağısoyun "Elçinin "Baş" romanı struktur-funksional təhlil müstəvisində" monoqrafiyasının özəl cizgiləri üzərində dayanaraq, N.Tağısoya gələcək tədqiqatlarında uğurlar arzulayıblar.

***ZÜMRÜD***

# Goranboyda forum keçirilib




İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu sahibkarların maarifləndirilməsi, sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi tədbirlərini davam etdirir. Bu sahədə növbəti işgüzar forum dekabrın 15-də Goranboy rayonunun Rəhimli kəndində keçirilib. 90-a yaxın sahibkarın iştirakı ilə keçirilən forum çərçivəsində rayonun iqtisadi potensialının reallaşdırılması istiqamətində sahibkarlarla müzakirələr aparılıb, Fond tərəfindən Goranboy rayonunun iqtisadi potensialına uyğun olaraq, bitki yağları və nar konsentratı istehsalı, süd emalı və meyvəqurutma müəssisələrinin, südlük istiqamətli cins heyvandarlıq, intensiv bağçılıq və arıçılıq təsərrüfatlarının yaradılması üzrə hazırlanmış nümunəvi investisiya layihələri və metodiki materiallar sahibkarlara təqdim olunub. Forumda İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktorunun müavini Arif Vəlimәmmədov Fondun özəl bölmənin inkişafında, xüsusən də regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

TƏRS BAXIŞ

# AXCP-"REAL" qarşıdurması çərçivədən çıxdı

*Hərəkat funksioneri: "Əli Kərimli satqınçılq nümunəsi olduğu kimi, həm də həyasızlığın son həddidir"*




***Son günlər "Respublikaçı Alternativ Hərəkatı" və ənənəvi müxalifət düşərgəsində təmsil olunan dağıdıcı siyasi qurumlar arasında kəskin qarşıdurmalar müşahidə olunmaqdadır. "REAL"-ın icraçı katibi Natiq Cəfərli müxalifəti ötən əsrin 80-90-cı illərində ilişib qalmaqda, "azadlıq" və digər ənənəvi şüarları gözdən salmaqda ittiham edib.***

O, ənənəvi düşərgə təmsilçilərini köhnəçilikdə, meydan təfəkküründə, bolşevizmdə, ümumilikdə, düzgün siyasət aparmamaqda və xarici qüvvələrdən sifariş almaqda günahlandırıb. AXCP sədri Ə.Kərimlinin söyüş qrupu və "like" (bəyənmə) edənlər qismində fəaliyyət göstərən adamları N.Cəfərliyə qarşı hücuma keçiblər. Gözəl Bayramlının həbsindən sonra oxu daşa dəyən Ə.Kərimli ara-sıra mitinq keçirməyi çıxış yolu hesab edərək, onların "tələblərinə" qatılmayanları xəyanətkarlıqda ittiham edib. Bütün bunlara baxmayaraq, AXCP üzvlərinin sosial şəbəkələrdə İlqar Məmmədovun və N.Cəfərlinin ünvanına təhqir dolu fikirlər yazmaları vəziyyəti daha da qəlizləşdirib.

### "REAL"la savaşın köklü səbəbləri...

"Milli Şura" "REAL"a birgə iştirakla bağlı hər hansı müraciət və ya təklif etməyib və edə bilsəydi də, təşkilat olaraq, o səviyyəsiz qurumun tədbirlərində iştirak etməyəcəkdik". Bu fikirləri mətbuata açıqlamasında "Respublikaçı Alternativ Hərəkatı"nın idarə heyətinin üzvü Azər Qasımlı bildirib: "Ataların gözəl deyimi var : "Utanmasan, oynamağa nə var ki". Dünənə qədər bizə qarşı təhqirli sözlər deyən xarici qüvvələrin nökəri olan Ə.Kərimli kimilər indi bizi yanına dəvət edir. Bu da, təəccübli deyil. Çünki Ə.Kərimli satqınçılq nümunəsi olduğu kimi, həm də həyasızlığın son həddidir".

A.Qasımlı onu da bildirib ki, Ə.Kərimlinin məqsədi onun vasitəsi ilə təşkilatı parçalamaq, İ.Məmmədovu qarşısındakı baryer kimi aradan qaldırmaqdır. Beləliklə, hər kəslə-bütün müxalifət qurumları ilə əsl düşmənçilik münasibəti yaradan Ə.Kərimlinin belə bir şəraitdə vəziyyəti aydındır - o, çıxılmaz durumdadır və özünü bu kimi yollarla xilas etməyə cəhd göstərir. Onun özü də, yaxşı bilir ki, heç bir siyasi təşkilat bu adamı və təmsil etdiyi qurumu dəstəkləmir: "Şər-böhtan və təhqir maşınına çevrilən AXCP və "Milli Şura"nı kim dəstəkləyər ki!? Belə bir şəraitdə, mitinqə gedən və ölkədə "ana müxalifət" olduğunu göstərmək üçün onun dediklərini yerinə yetirməyən, yersiz və məntiqsiz tələblərinə boyun əyməyən hər kəsə şər atan Ə.Kərimlinin rəhbəri olduğu partiya da, "Milli Şura" da iflasın astanasındadır".

### "Kərimlinin yanında partiyanın barmaqla sayılacaq qədər üzvlərindən başqa, kimsə qalmayacaq"

Təşkilatın funksioneri onu da bildirib ki, xalqdan heç bir halda dəstək ala bilməyən Ə.Kərimlini də qıcıqlandıran odur ki, heç kim onun yanında deyil: "Necə deyərlər, xalq şərin və böhtanın yanında deyil, inkişafın, tərəqqinin və saflığın yanındadır. Heç şübhəsiz ki, sosial şəbəkələrdə mənasız çağırışlar etməklə, insanlarda dərin ikrah hissi yaradan Ə.Kərimlinin yanında partiyanın barmaqla sayılacaq qədər üzvlərindən başqa kimsə qalmayacaq". Görünən isə budur ki, AXCP-"REAL" qarşıdurmasının köklü səbəbləri, əslində, Ə.Kərimlinin özünə xal toplamasına yönəlmiş addımdır. Ancaq onun bu addımının də baş tutmayacağı da bəri başdan bəllidir.

**RÖVŞƏN**

# Müxalifətdaxili mübarizələr kəskinləşir

***Azərbaycanda 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə hazırlıq, artıq başlasa da, müxalif düşərgədə bu hal müşahidə olunmur. Əksinə, dağıdıcı müxaliflər arasında parçalanma getdikcə dərinləşir. Müxalifətdə təmsil olunan partiya sədrlərinin seçkiyə qatılıb-qatılmaması da hələ bəlli deyil. Bu isə, onunla izah oluna bilər ki, müxalifət sosial bazadan tamamilə məhrum olub.***

### Müxalifətdaxili intriqalar və ambisiyalar praqmatik addımlar atmağa imkan verə bilməz

Baxmayaraq ki, növbəti il Azərbaycanda prezident seçkilərinin keçirilməsi nəzərdə tutulur, ancaq müxalifətin nəzərə çarpacaq tərpənişi belə hiss olunmur. Bu isə, o deməkdir ki, onlar sonda üzləşdikləri acı reallıqla barışmalı olacaqlarını çox yaxşı başa düşürlər. Elə buna görə də, funksionerlər ayrı-ayrılıqda çıxış yolları axtarır, hətta əhalinin müxtəlif qruplarından kömək gözləyirlər. Məsələn, bu yaxınlarda İsa Qəmbər ziyalılara müraciət edərək, onları məsləhətləşmələrə çağırsa da, bunun heç bir nəticəsi olmayıb. Çünki öz aralarında ümumi dil tapmayan qurumların kimlərinsə məsləhətinə qulaq asacağı, razılaşacağı ağlasığan deyil. Hər bir müxalifət funksioneri və partiya sədri yalnız öz maraqlarını, liderlik statusu qazanmaq planlarını, bir sözlə, yalnız özünü düşünürsə, nə ümumi dil tapmaqdan, nə də razılaşmadan söhbət gedə bilməz. Belə olan halda, xalqla öz aralarında körpu yarada biləcəklərinə ümid qalmır və bu da sosial bazanın olmaması deməkdir. Sosial bazası və elektoratı olmayanların seçkilərdə iştirakı, hər hansı bir nəticəyə ümid bəsləməsi isə gülüncdür.



Müxalifət daxilində birləşmənin, hətta ümumi dil tapmanın mümkünsüzlüyü və onun səbəbləri gün kimi aydındır. Çünki müxalifətdaxili intriqalar, hərc-mərcilik və şəxsi mənafelərin ön planda olması heç kim üçün sirr deyil. Daxili intriqalar və ambisiyalar uğurlu siyasət aparmağa imkan verə bilməz. Hər bir funksioner özü haqqında yüksək fikirdədir və kompromis, bu səbəbdən, heç zaman alınmayacaq. Müxalifət düşərgəsində təmsil olunan partiya sədrləri, qurum rəhbərləri, hətta müavinlər belə, hamını öz ətrafında birləşməyə dəvət edir. Məqsəd isə nə dövlətçilik maraqlarıdır, nə milli mənafedir. Hər kəs müxalifət düşərgəsində liderliyi ələ keçirmək, özlərinin birinciliyini təsdiq etmək və yerdə qalanlara öz iradələrini diqtə etmək niyyətindədirlər.

### Cəlaloğlu Kərimliyə "kasıb itinin adını brilyant qoyar" aforizmi ilə cavab verib

Azərbacan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu Əli Kərimlinin "müxalifət bizik" iddiasına, "kasıb itinin adını brilyant qoyar" aforizmi ilə cavab verib. "Gəl sənin adını "Müxalifət", ya da "Müxalifət Əli qoyaq", deyən Sərdar Cəlaloğlu AXCP sədrini ələ salırsa, deməli, onun Ə.Kərimli ilə bir araya gəlmək fikri yoxdur. Görünür, ADP sədri Kərimlini heç saya salmır və hətta onu, öz fəaliyyəti ilə iqtidarın çörəyinə yağ sürtməkdə də ittiham edir. Bir sözlə, S.Cəlaloğlu Ə.Kərimlinin fəaliyyətinin heç də doğru olması qənaətində deyil və belə olan halda, nəinki bir araya gəlməkdən söhbət gedə bilməz, hətta ADP sədri Ə.Kərimlini heç siyasi fiqur kimi qəbul etmir də.

Bəllidir ki, AXCP ilə ADP rəhbərliyinin timsalında heç bir müxalifət funksionerindən biri digəri ilə heç zaman eyni yolu da getməyib və heç bir fikir ortaqlığı da olmayıb. İctimaiyyət üçün sirr deyil ki, müxalifət düşərgəsində təmsil olunan partiyalar, onların funksionerləri, sədrləri, müavinləri, hətta partiya sıralarındakı sıravilər belə eyni əqidə və eyni fikir sahibi deyillər. Bundan sonra da bir araya gələcəklərinə heç özlərinin də ümidi yoxdur. Çünki hər biri ayrı-ayrılıqda başa düşür ki, hər bir partiya funksioneri fərqli düşüncəyə malikdir və biri digərinin fikirlərini heç zaman qəbul etməyəcək. Daha dəqiq desək, müxalifətdə təmsil olunan hər kəs, digərlərini yox, yalnız özünü başbilən hesab edir. Özünü çox ağıllı, çoxbilmiş kimi sırımağa çalışanların isə məqsədi nə müxalifətin, nə də ağızdolusu danışdıqları demokratiyanın, dövlətçiliyin və bir sıra dəyərlərin hamı üçün çalışmaq deyil. Sadəcə, hər biri müxalifət daxilində birinciliyini təsdiq etməyi və liderliyi ələ keçirməyi arzu edir. Belə olan təqdirdə, müxalifətin bir araya gəlməsindən, razılaşmasından, birləşməsindən söhbət gedə bilməz. Təbii ki, birinin digərinə inamı olmayan quruma xalqın etibar edəcəyi də mümkün deyil. Xalqın inamını, etibarını qazanmayan, arxasında xalq dayanmayan qurumlar isə hər zaman olduğu kimi, ardıcıl məğlubiyyətə və məhvə məhkumdurlar.

**İnam HACIYEV**

# Müxalifət uduzmağa məhkumdur

*Tahir Kərimli: "Polşada Qərbə sərf etməyən hökumətlərə təzyiq etmək üçün müxalifət və bəzi siyasiləşmiş QHT-lər yetişdirilir"*



Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir

***- Tahir bəy, belə bir məlumat yayılır ki, müxalifət növbəti bir qurum yaratmaq niyyətindədir. Sizcə, "Milli Şura" və "Demokratik Düşüncə Mərkəzi" adlı qurumlar olduğu halda, yeni bir qurumun yaradılması nə dərəcədə effektif nəticə verəcək?***

- Bildiyiniz kimi, müxalifətin bütün həyatı dövründə bloklar və birliklər yaratmaq niyyətləri puça çıxıb. Yeni müxalifət düşərgəsini təmsil edən şəxslər bu günə qədər bir çox birlik və blok yaratsalar da, sonda həmin qurumların hamısı fiaskoya uğrayıb. Bütün bunların fonunda, yenidən növbəti bir qurum yaratmaq niyyəti heç bir nəticə verməyəcək. Müxalifət liderləri bununla barışa bilmir və nəticədə, daim uğursuzluğa düçar olacaqlar. Bunun da səbəbi onların yersiz hərəkətlərə əl atması ilə bağlıdır.

***- Çox maraqlıdır ki, müxalifətin birgə toplantılarının keçirilməsinə daha çox Polşanın Azərbaycandakı səfirliyi az qala koordinasiyaçı rolunda çıxış edir. Bunun üçün dəfələrlə müxalifət liderlərinin iştirakı ilə səfirlikdə görüşlər də keçirilib. Polşanın bu məsələdə marağı nə ola bilər?***

- Demək olar ki, postsosialist düşərgəsi üzrə Polşa Qərb və ABŞ tərəfindən bir növ mərkəz yetişdirmə orqanı rolunu oynayır. Polşanın təkcə Azərbaycanla bağlı deyil, Ukrayna və Rusiya ilə bağlı da layihələri həyata keçirilir. Yəni Polşa açıqdan açığa özünü Qərbə və Sorosa təslim edib. Bir sıra postsovet məkanında, keçmiş sosialist ölkələrində hökumətlər əleyhinə müxalifətin formalaşması ideyaları Polşadan gəlir və Polşadan qurulur. Ona görə də, Polşa bu rolda iddialıdır və özü də çox aqressivdir. Biz bunu Ukrayna və digər hadisələrin timsalında görürük. Bu məsələlərin koordinasiya edilməsi üçün Polşa seçilib. Polşada Qərbə sərf etməyən hökumətlərə təzyiq etmək üçün müxalifət və bəzi siyasiləşmiş QHT-lər yetişdirilir.

***- Sizcə, müxalifət niyə formalaşa bilmir?***

- Bu gün müxalifət düşərgəsini təmsil edən liderlərin şəxsi ambisiyaları o qədər güclüdür ki, milli və dövlətçilik maraqları onları düşündürmür. Çünki müxalifət partiya sədrlərini maliyyələşdirən xarici qurumlar belə istəyir və bəzən, hətta tələb edirlər. Həm də müxaliflər arasında ciddi qarşıdurmalar da mövcuddur. Partiya sədrləri müxalifət düşərgəsində digərindən üstün olmaq üçün bütün mümkün vasitə və üsullardan istifadə edirlər. Bu baxımdan, müxalif partiya sədrlərinin olub-keçən narazılıqları kənara qoyub, hansısa birliyin yaradılmasından söhbət gedə bilməz.

***- Növbəti il keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ərəfəsi müxalifətin xarici qüvvələrlə əlaqələrinin genişlənə biləcəyini demək olarmı?***

- Müxalifət düşərgəsini təmsil edən partiya sədrlərinin, qarşıdan gələn seçkilərlə əlaqədar, özlərinə xaricdən güc toplamaq imkanları sıfıra bərabərdir. Ümumiyyətlə, bu günə qədər müxalifət təmsilçiləri qatıldıqları bütün seçkiləri uduza-uduza gəliblər. Yəni bundan sonra da müxalifəti ağır, həm də, acınacaqlı məğlubiyyət gözləyir. Çünki xalqın bunlara heç bir dəstəyi yoxdur. Onların özləri də reallığı dərk edirlər. Müxalifət partiya sədrləri çox gözəl bilirlər ki, bu seçkilərdə onların cüzi uğur qazanmaq şansları sıfıra bərabərdir. İndiki fəallıq, sadəcə, xarici qüvvələrə özlərini göstərmək və bununla da, maliyyə yardımları almaq istəyirlər. Seçkilərdə əldə edə biləcəkləri nəticə xalqın onlara sərt mənfi münasibəti olacaqsa, əldə edə biləcəkləri qazanc xarici ağaların qəpik - quruşu olacaq.

**GÜLYANƏ**

# Müsavat partiyasında qarşıdurmalar davam edir

***Müsavat partiyası başqanına yeni müavin təyin edilib. Daha doğrusu, bir neçə müavini olduğu halda, partiya başqanı üçün daha bir yeni müavin təyin edib. Bu, Müsavat partiyasının təşkilat şöbəsinin müdiri, həm də partiyanın divan üzvü Razim Əmiraslanlıdır. Təyinatla bağlı partiya başqanı Arif Hacılı sərəncam imzalayıb.***

Görünür, 2016-cı ilin mart ayında əfvlə azadlığa çıxdıqdan sonra T.Yaqublunun Müsavatın Arif Hacılı qanadının ümumi siyasətinə qarşı fəaliyyəti partiya rəhbərliyindəki bəzi şəxslərin xoşuna gəlmir. “Milli Şura” ilə əlaqələrini kəsməməsi, Müsavat funksioneri olmasına baxmayaraq, “Milli Şura”nın üzvü olaraq qalması, daim hər iki müxalif düşərgənin bir yerdə olmalarının vacibliyi barədə çağırışlar etməsi, Tofiq Yaqublunu A.Hacılı qaragüruhunun qəzəbinə gətirən səbəblərdir. A.Hacılı qanadını daim rahatsız edən T.Yaqublunun AXCP sədri Ə.Kərimli ilə yaxşı münasibətdə olmasıdır.

T.Yaqubluya partiya rəhbərliyi tərəfindən dəfələrlə iradlar olsa da, o, bunların heç birinə məhəl qoymur və “Milli Şura” funksionerləri ilə tez-tez görüşür, fotolar çəkdirib sosial şəbəkədə yayır, keçirilən bəzi tədbirlərdə onlarla birlikdə iştirak edir. Yaqublunun “Milli Şura” ilə əlaqələri, hətta Müsavatın son divan toplantılarının artıq müzakirə mövzusuna çevrilib. A.Hacılıya yaxınlığı ilə seçilən əksər divan üzvləri də Müsavatın dəhlizlərində belə geniş müzakirə obyektinə çevrilən başqan müavininə qarşı çıxırlar.

Bu çaxnaşma, təbii ki, 10 aydan sonra Müsavatda keçiriləcək başqanlıq seçkiləri ilə, bilavasitə bağlıdır. Artıq indidən partiya daxilində müxtəlif qrupların meydana gəldiyi inkar edilə bilməz. Əsasən, üç qrupun adı hallanır ki, onlara hazırkı başqan A.Hacılı, başqan müavini T.Yaqublu və daha bir başqan müavini Yadigar Sadıqov rəhbərlik edir. Bu şəxslərin hər birinin başqanlığa iddiaçı olacağı gözləniləndir. Hətta formalaşan qruplardan xəbərdar olan A.Hacılının partiya divanının son iclaslarının birində keçmiş başqan, MSDM rəhbəri İ.Qəmbərin başqanlığa namizəd olmayacağı təqdirdə, yenidən başqan olacağını qətiyyətlə bildirməsi narazılıqları pik həddə çatdırıb.

## Partiya daxilində xaos hökm sürür

T.Yaqubluya qarşı partiya daxilində mənfi münasibətin formalaşmasına səbəb olacaq faktlardan biri də, Müsavatın son qurultayında onun, hətta həbsxanadan belə açıq şəkildə başqanlığa namizəd olaraq Q.İbadoğlunu dəstəkləməsidir. Xatırladaq ki, Yaqublu bu gün də Qubad İbadoğlu ilə yaxşı münasibətdədir və onun təxminən iki ay öncə, Amerikada olarkən Q.İbadoğlu ilə fotolar çəkdirərək facebookda paylaşması bu münasibətləri təsdiqləyir.

Göründüyü kimi, partiya daxilində narazılıqlar, fikir ayrılıqları, konfliktlər hökm sürür və bu da, öz növbəsində, parçalanmadan və idarəsizlikdən xəbər verir. Belə məlum olur ki, A.Hacılı qurumu bir araya gətirə bilmir və idarəetməni itirib. Partiya daxilində fəaliyyət göstərmək əvəzinə, dedi-qodu və hərc-mərclik, bir sözlə, xaos hökm sürür. İntriqalar da maksimum həddə çatıb. Hər bir funksioner də digərini qüsurlarını içtimailəşdirəcəyi ilə hədələyir və təhdid edir. A.Yaqublunun “Çox da məcbur etməyin, danışaram, biabır olarsınız...” mesajı da belə hədələrdəndir. Amma “biabır olarsınız...” deyən Yaqublu, görünür, daha çox biabırçılıqlardan xəbərdardır və partiyanın fəaliyyəti rüsvayçılıqla dolu faktlarla zəngindir.

Əslində, partiyada bəzi rəhbər şəxslərin saxta partiya bileti alveri ilə məşğul olmaları yenilik deyil və bu məsələ hələ 2014-cü ildən gündəmdədir. Xüsusilə, 2015-ci ildə “Yeni Müsavat”ın xanım yazarı Sevinc Telmanqızının Avropadakı mühacir azərbaycanlıların həyatlarını qələmə almaq üçün bir sıra Avropa ölkələrində olması və bunun nəticəsində şok faktların üzə çıxmasından sonra bu məsələ daha da dərinləşdi və bu xanımın reportajları zamanı yüzlərlə saxta Müsavat arayışı ilə Avropaya üz tutan vətəndaşlarımızın olduğu üzə çıxdı. Partiya mənsubiyyəti olmayanların, Avropada məskunlaşmaq hüququ almışların, yaxud yeni gedənlərin paylaşdıqları statuslardan məlum olurdu ki, özlərini Müsavatın üzvü kimi təqdim edən elə şəxslər var ki, partiya başqanının kim olduğunu belə bilmirlər, ya suallardan qaçırlar, ya da İ.Qəmbərin artıq başqan olmamasından xəbərləri belə yoxdur.

Son zamanlar Müsavat başqanı A.Hacılının tez-tez Avropa ölkələrinə getməsi, saxta yollarla mühacirətə gedən şəxslərin məhkəmələrində barəsindəki saxta məlumatların təsdiqləməsi, onu deməyə əsas verir ki, başqanın saxta partiya bileti alveri barədə söylənilənlər yalan deyil. Avropa ölkələrinə saxta yollarla mühacirətə gedən şəxslərin məhkəmələrində iştirak edərək, saxta məlumatları təsdiqləmək xeyli bahalı prosedur sayılır. Bu prosedur da, öz növbəsində, Müsavat partiyası biznesinin tərkib hissəsidir.

## Müsavat qruplaşmalardan ibarətdir

Belə biabırçı faktları sadaladıqca, birmək bitmir və görünür Yaqublu danışacağı təqdirdə onların biabır olacağına, həqiqətən də, əmindir. Eyni zamanda, onun bu əminliyi, nəinki başqanın, heç partiya funksionerlərinin heç birinin ürəyincə deyil. Bu gün A.Hacılının fəaliyyətini, nəinki qənaətbəxş hesab etməyən, hətta bu fəaliyyətin qüsur və rüsvayçılıqlarla zəngin olması qənaətində olan T.Yaqublunun növbəti başqan seçkilərində hazırkı başqanı dəstəkləyəcəyinə heç kimin gümanı da yoxdur. Eyni zamanda, öz partiyadaşlarını biabırçılıqlarla hədələyən, təhdid edən müavinin öz vəzifəsini də layiqincə yerinə yetirməsi, başqanın idarəçiliyinə, qərarlarına tabe olması da, tapşırıqlarını yerinə yetirməsi də inandırıcı deyil. Digər bir müavin, Lənkaranda yaşayan Yadigar Sadıqovun da müavin vəzifəsinin öhdəsindən layiqincə gəlməsi şübhə doğurur. Çünki Müsavat daxilində digər bir fikir ayrılığı da, məhz Sadıqova məxsusdur və partiyadaxili digər qruplaşmaya da, məhz o rəhbərlik edir. Belə olan halda, Müsavat başqanının yenidən müavin sevdasına düşməsi başadüşüləndir. Çünki Hacılı Arif başqan olduğu halda, qərarları müavinləri tərəfindən icra edilmirsə, hesaba alınmırsa, özünə yeni bir müavin təyin etməsin, neyləsin? Bir də, bu, onun üçün elə bir çıxış yoludur ki, hər zaman öz aktuallığını qoruya biləcək. Belə ki, əgər bir müddətdən sonra Yaqublu və Sadıqov kimi, Əmiraslanlı da onun əmrlərinə itaətsizlik göstərsə, gözlənilən yeni bir qruplaşma yaratsa, A.Hacılı da bir başqan kimi daha yeni bir müavin seçə bilər. Partiya başqan və müavinlərdən ibarət olana qədər bu proses davam edə bilər. Qaldı qruplaşmaların sayının artmasına, parçalanmaların miqyasının böyüməsinə, Hacılı üçün nə fərqi var, onun üçün əsas odur ki, başqanlığını qorusun.

Məsələ burasındadır ki, heç də yeni müavin təyinatı Müsavatda fikir ayrılığının, hərc-mərciliyin və parçalanmanın qarşısını ala bilməz. A.Hacılı da bu xaosun qarşısını almaq iqtidarında deyil. Saxta partiya bileti alveri ilə məşğul olan, heç bir partiyanın üzvü olmadığı halda, Avropadakı mühacirlərin məhkəməsində iştirak edərək, saxtakarlığı təsdiqləyən başqanın “biabırçılıq”dan yaxa qurtarmaq şansı yoxdur. Eyni zamanda, fəaliyyəti rüsvayçılıqla müşaiyət olunan qurumun parçalanması da labüddür.

**İnam HACIYEV**

# “Ermənilər, bir qayda olaraq, gücə təzim etməyə öyrəşmiş millətdir”

*Azər Həsrət: “Müharibə, onsuz da, acınacaqlı durumda olan erməniləri daha da acınacaqlı duruma salır “*



Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir

***- Azər müəllim, Ermənistanda “Əsgər anaları” təşkilatı Dağlıq Qarabağ münaqişəsinin dayandırılması və ərazilərin Azərbaycana qaytarılması tələbi ilə Sarkisyan rejiminə müraciətlər ünvanlayırlar. Sizcə, bu, Ermənistan cəmiyyətinin mənasız iddialardan yoruldaqlarını deməyə əsas ola bilərmi?***

- Ermənistanın ağlı başında olan heç bir insanı Dağlıq Qarabağ münaqişəsinin davamını arzu etmir. Onlar yaxşı anlayırlar ki, gündən-günə güclənən Azərbaycan günün birində işğal altındakı torpaqları öz gücünə azad edəcək. Ona görə də, mənasız və əsassız iddialardan əl çəkib, dinc yanaşı yaşamaq üçün çağırışlar edir, öz övladlarının heç nə uğrunda həlak olmalarının qarşısını almaq istəyirlər. Bu müharibə, onsuz da, acınacaqlı durumda olan erməniləri  daha da acınacaqlı duruma salır.

***- Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə Ermənistan cəmiyyəti və xaricdəki erməni lobbisi ilə Sarkisyan arasında ziddiyyətlər mövcuddur. Bu ziddiyyətlər münaqişənin Azərbaycanın milli maraqları çərçivəsində həll olunmasında nə kimi yardımçı ola bilər?***

- Bu işğal faktı, o qədər dərinə işləyib ki, Ermənistanın ayrı-ayrı kəsimləri, artıq bir an öncə, problemin çözülməli olduğunu dərk edir. Ona görə də fərqli kəsimlər fərqli həll yolları təklif edirlər. Son zamanlar isə Ermənistanda müxtəlif fəallar, qruplar təklif edirlər ki, torpaqları Azərbaycana qaytarıb, sülh şəraitində yaşamaqdan başqa çıxış yolu yoxdur. Təbii ki, bu yolu təklif edənlər daha uzaqgörənlərdir. Qeyd etdiyimiz kimi, onlar Azərbaycanın artmaqda olan gücünün bir gün savaş meydanında icraata yönələcəyini və bunun ermənilər üçün nə demək olduğunu anlayanlardır. Belə bir durum bizim üstünlüyümüzün təsdiqi sayıla bilər.

***- Hər dəfə “Lavrov planı”ndan danışılır, 5 rayonun, daha sonra 7 rayonun işğaldan azad ediləcəyi bildirilir. Amma konkret mövqe, hələ ki, ortada deyil. Bu cür fikir və təkliflər nə zaman reallığa çevriləcək?***

- “Lavrov planı” özlüyündə cəlbedici olsa da, onun icrası istiqamətində qəti addımlar atılmadıqca hansısa gerçək sonucdan danışa bilmərik. Şəxsən, mənə elə gəlir ki, yaxın müddət üçün problemin çözümünü gözləmək tələskənlik olardı. Biz hərbi-iqtisadi gücümüzü artırmaqda davam etməliyik və Ermənistanda bu faktorun onlara nə vəd etdiyi daha geniş anlaşılmalıdır. O zaman heç Lavrov və onun planı olmadan da, məsələ həllini tapacaq. Çünki ermənilər, bir qayda olaraq, gücə təzim etməyə öyrəşmiş millətdir.

**GÜLYANƏ**

# 25 qanuna dəyişiklik edildi

Dünən Milli Məclisin Plenar iclasında 25 qanuna dəyişiklik layihəsi səsə qoyulub. SİA-nın məlumatına görə, bunlar “Rəsmi statistika haqqında”, “Həmkarlar ittifaqları haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin daxili xidmət nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında, “Meliorasiya və irriqasiya haqqında”, “Toxumçuluq haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Yol hərəkəti haqqında”, “İstehsalat və məişət tullantıları haqqında”, “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”, “Heyvanlar aləmi haqqında”, “Polis haqqında”, “Prokurorluq haqqında”, “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Taxıl haqqında”, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Məşğulluq haqqında”, “İcra haqqında”, “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə”, “Televiziya və radio yayımı haqqında”, “Lotereyalar haqqında” və “Uşaqların icbari dispanserizasiyası haqqında” qanunlara dəyişikliklərin edilməsini nəzərdə tutan layihələrdir. Hər bir dəyişiklik layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib. Qeyd edək ki, bu dəyişikliklər İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi daşıyır.

# Azərbaycanın qədim ənənələri

***Azərbaycan qədim tarixə və zəngin təbiətə malikdir. Təbiətin müxtəlifliyi qədim insanlarda həyat haqqında mifik təsəvvürlərin yaranmasına səbəb olmuşdur. İnkişaf qanunlarından xəbərsiz olan qədim insanlar təbiət hadisələrinə xeyir və şər gətirmək bacarığı verib, onları canlandırırdı. “Təbiətlə mübarizə ibtidai insanların həyatını tədricən dəyişərək, dərketmə qabiliyyətini xeyli artırdı, bu da dini etiqadların və ayinlərin yaranmasına təsir etdi. Keçən minilliklər ərzində ibtidai etiqadlar bir-birinə qarışmış, daş, ağac, od, su kultları və əcdadlara pərəstiş, təbiət kultu kimi mürəkkəb kompleks formalaşmışdır. Təbiətin müxtəlif əşyalarına sitayiş və qədim insanların arxaik təsəvvürləri ən qədim dövrlərdən qarşılıqlı asılılıqda olmuşdur. “Təbiət qüvvələri insana yad, müəmmalı və sarsıdıcı gəlir. Bütün mədəni xalqların keçdikləri mərhələlərin müəyyən pilləsində insan təbiəti təmsiletmə yolu ilə mənimsəyir.” Bunlar dini təsəvvürlərin yaranmasına təsir etmiş, bu dövrün insanları özlərini təbiətin ayrılmaz bir hissəsi hesab etmiş və özləri ilə təbiət arasında heç bir fərq qoymamışlar.***

Dünyanın bir sıra xalqlarında olduğu kimi, Azərbaycanda da islamdan əvvəlki dövrdə bir çox qədim dini inamlar, etiqadlar və mərasimlər geniş yayılmışdı. Qeyd etmək lazımdır ki, islamaqədərki dini təsəvvürlər mahiyyətcə çox mürəkkəb və çoxcəhətlidir. Təsadüfi deyil ki, tədqiqatçılar arasında bu təsəvvürlərin elmi təsnifatı və prinsipləri haqqında fikirlər müxtəlifdir. Burada miflə dinin nisbəti, daha doğrusu, islamaqədərki əqidələrin mif və yaxud din hesab olunması məsələsini və s. göstərmək olar. Mütəxəssislərin fikrinə görə, qədim dini etiqadların sistem və modelləşdirilməsinə böyük ehtiyac duyulur. Azərbaycanda islamaqədərki etiqadların aşağıdakı formaları mövcuddur: daş ayini, su ayini, ağac ayini, od ayini, kosmoqoniya ilə bağlı etiqadlar və s. Yuxarıda qeyd olunan ayinlər animizm, magiya (sehrbazlıq), totemizm, əcdadlara sitayiş və fetişizmlə sıx bağlıdır.

Tədqiqatçıların fikrincə, ibtidai dini təsəvvürlərin yaranma izləri Azıx mağarasının qədim sakinlərinə məxsusdur ki, bu da ilk paleolit dövrünə təsadüf edir.

İnsanın ilk məskəni mağaralar olmuşdur. Onlar insanın həyatında mühüm rol oynamış, həyatını qorumuş, soyuqdan və istidən saxlamış, həm də əldə etdiyi qida məhsullarının saxlanmasına imkan yaratmışdır. Pirlərin çoxu da insanların qədim sığınacağı olan mağaralarda yerləşmişdir. Bu mağaralar Azərbaycanda müxtəlif adlarla: “sığınacaq”, “pənah” “zağa”, “mağara” və “kühül” adlandırılmışdır. Mağaralar əcdadlarımız üçün ibadətgah olmuşdur.

Bu dövrə xas xüsusiyyətlərdən biri mağarada yaşayan insanların ölmüş insanlar üçün nəhəng abidələr ucaltmasıdır. Daş dövrünün son mərhələsinə aid olan bu nəhəng tikililər meqalit adlanır. Onlar qədim dəfn mərasimləri ilə əlaqədardır. Meqalitlərə menqirlər, dolmenlər, kromlexler və daş qutular da aiddir. Arxeoloqlar siklopik (nəhəng) tikililəri də meqalit abidələrə aid edirlər. Azərbaycanda meqalit abidələrin ən geniş yayılmış forması kromlexlərdir. Bunlar dairəvi düzülmüş, üzərinə daş lövhələr qoyulmuş nəhəng daşlardır və hər birinin hündürlüyü 6-7 metrə çatır. Dairənin mərkəzində ayrıca qoyulmuş daşa və ya qəbirə təsadüf edilir. Belə abidələrə Qobustanda rast gəlinir. Onların əksəriyyətinin mərkəzində qəbir olduğundan, bu abidələr, nəinki günəş kultu, həmçinin, ölülər kultu ilə də bağlıdır.

R.Quliyeva yazır: “Azərbaycanda mezolit dövrü Qobustan tapıntılarında əks olunur. Burada ən qədim rəsmlər, əsasən, qadın təsvirləridir. Bu rəsmlər məhsuldarlıq simvolu daşımaqla yanaşı, həm də qadının cəmiyyətdə rolunu göstərir. Arxeoloji materiallara əsasən, ölülər basdırılarkən, həsirə bükülür, qəbir çuxuruna isə sağlığında malik olduqları bəzək əşyaları qoyulurdu”.

Qədim dini təsəvvürlərdə əcdadlara pərəstiş mühüm yer tuturdu. Məhsuldar qüvvələrin sonrakı inkişafında təsərrüfat-məişət həyatında qadının mövqeyi zəifləyir və kişinin cəmiyyətdə rolu xeyli artır. Dəfn adətlərində kişiyə pərəstiş müşahidə edilir. Bununla əlaqədar, kişiyə aid heykəllər yaranır. Kişiyə pərəstiş oda pərəstişlə əlaqəlidir. Buna ölüyandırma adətində də rast gəlinir. Cəsədlərin torpağa tapşırılması ilə yanaşı, o dövrdə müqəddəs sayılan ağaclardan qalanmış böyük tonqalda yandırılması adəti də yayılmışdı. Qədim Azərbaycanda arçan ağacı müqəddəs sayılmışdır. Arçan ağacı qəbiristanlıqlarda əkilmiş, onun şirəsindən xəstəliklərin müalicəsində və tüstüsündən ipəkqurdu yetişdirilməsində istifadə edilmişdir.

Qədim azərbaycanlıların animistik təsəvvürləri, əsasən, insanla, təbiətlə, xüsusən, ruhla bağlı olmuşdur. Məzarda yerləşən daş qutulardakı dəlikləri də qədim insanın animistik baxışları ilə əlaqələndirmək olar. Daş azərbaycanlıların, eləcə də, dünyanın bir çox xalqlarının arxaik təsəvvüründə ruhun məskəni sayılmış və şübhəsiz ki, qədim etiqadlarda ruh haqqında təsəvvürlər əhəmiyyətli yer tutmuşdur.

R.Quliyevanın fikrincə, Azərbaycanda mövcud olmuş arxaik inama əsasən, ruh ölümdən sonra daşa keçir. İndi də xalq arasında “öldü, yəni daşa döndü” ifadəsi “ölmək” mənasında işlənir. Azərbaycanın bir sıra bölgələrində əzabla ölənin əlinə daş qoyardılar ki, ruhu daşa keçib, rahatlansın. Mahiyyətcə çox qədim olan başqa bir mərasimdə ölünü evdən yola salanda, arxasınca daş atırlar. Xalq arasında birinə ölüm arzulayanda, belə bir ifadə də işlənir: “Dalınca bir qara daş”, Azərbaycanın hər yerində indi də hamilə qadın öləndə, yanına daş qoyurlar ki, ölən uşağın ruhu ona keçsin.

Müasir azərbaycanlıların dəfn mərasimlərində olan daşla bağlı ayinlər, həqiqətən də, müsəlman ayinləri ilə qarışan qədim təsəvvürlərin qalıqlarıdır və onlar milli-mənəvi mədəniyyətin ayrılmaz hissəsi kimi qəbul edilir. Adətən, ölən adam üçün qəbir qazılır və başdaşı qoyulur. Bu, unudulmuş qədim baxışlarla bağlıdır və indi də islam dini tərəfindən qəbul edilmişdir. Arxaik təsəvvürə əsasən, ölənin ruhu stel daşına keçir. Stel torpağa basdırılmış menqir daşların qalıq formasıdır. Çox vaxt stellər yıxılmış və ya şaquli basdırılan yonulmuş daş abidələrə oxşayır. Belə daşlara Qarabağ düzənliyində və Kiçik Qafqazın dağətəyi hissəsində rast gəlinir.

Daşla bağlı inanclar azərbaycanlıların məişətində xüsusi yer tutur. Qədim ənənəyə görə, yeni evin inşasında bünövrəyə qoyulan daş müqəddəs sayılır. Xalq arasında daimi yaşayış yeri “bünövrə daşı” adlanır. Əbədi tikinti rəmzi hesab olunan belə daş, adətən, ağsaqqallar tərəfindən qoyulur. Azərbaycanın bir çox bölgələrində gəlini bəy evinə köçürərkən, cibinə daş qoyardılar. Bu, gəlinin ər evində kök salması arzusundan irəli gəlirdi.

Daş ayini ilə bağlı arxaik təsəvvürlər Azərbaycan folklorunda da öz əksini tapmışdır. Onların kökü xalqın empirik biliklərindən və mərasimlərindən yaranmışdır. Nağılların çoxunun məzmunu qədim adətlərdən götürülmüşdür. “Dostların sirri” nağılında bəlaya düşmüş dostlar məqsədlərinə daşın köməyi ilə çatırlar. Daş piri tərk edərkən, geriyə baxmağa qoyulan qadağa bir sıra nağıllarda öz əksini tapmışdır. Azərbaycanlıların məişətində “dərdin daşlara”, “mənim daşım sənin başına düşsün”, “sən mənim daşımı atmısan” kimi daşla bağlı ifadə və diləklər geniş yayılmışdır. Ər arvadını boşayanda isə, onun dalınca daş atar və deyərdi: “Daşını atdım”. Qədim təsəvvürlərə görə, daşın təsir qüvvəsi “sərhədsizdir” və buna görə də, belə inamlar insanların məişətində qorunub-saxlanmışdır.

R.Quliyeva yazır: “Qədim dini təsəvvürlərdə ruhların qeyri-adi qüvvəsinə inam xüsusi yer tuturdu. Belə ruhlar şeytanlar, cinlər, qulyabanı və hal anası kimi xeyirxah və şər ruhlara bölünürdü. Cinlər xalqın mifik təsəvvüründə onlara zərər vuran şeytana bənzədilirdi. Ona görə də, qaynar suyu yerə və oda tökmək, cinlər üçün paltar hesab edilən soğan və sarımsaq qabığını yandırmaq olmazdı.

Qədim insanların həyatdakı çətinlikləri onlarda təbiətə möcüzə və magiya üsulu ilə təsir etməyin mümkün olduğuna inam, mövcud üsullar içində isə müxtəlif talisman və amuletlərin yaranmasına səbəb olmuşdur ki, onların vəzifəsi insanı müxtəlif bəlalardan qorumaq idi. Adətən, amuletlər çay daşlarından olurdu. Azərbaycanlıların məişətində kök salmış inama görə, toxuculuq dəzgahlarını, nehrəni gözdəymədən qorumaq, yağın tez çalxanması və bolluğu üçün daşlardan düzəlmiş bağlamalar asardılar. Ənənəvi təsəvvürlərə görə, xalça toxuyanların ustalıq məharətini bədnəzərdən qorumaq məqsədilə dəzgahdan təbii oyuğu olan xırda çınqıl daşları asardılar. Azərbaycanın bəzi bölgələrində belə adətlərə indi də rast gəlmək olur.

Qədim sakinlərin arxaik təsəvvürlərinə görə, amulet şeytanın fitnələrindən qorunmağa kömək edir. İnama görə, göz dəyəndə pərişanlıq, sıxıntı halları duyulur, bəlalar və uğursuzluqlar baş verir. Amulet ətraf mühitə təzyiq göstərərək, sahibini şərdən, bəladan qoruyur, ona xoşbəxtlik, var-dövlət və müvəffəqiyyət gətirir.

Azərbaycanda qədimdən əqiqdən düzəldilmiş muncuqları amulet kimi istifadə etmişlər. Azərbaycanlıların arxaik inamına görə, əqiq (baba daşı) Allah və insanlar arasında vasitəçi rolunu daşıyır”.

Babadağından götürülmüş daşlar “baba daşı” adlanır və dağın özü kimi müqəddəs sayılır. Rəvayətə görə, Babadağ ətəyindəki daşlar da bu dağın “bədəninin” hissələridir. Xalqın inamına görə, bu daşlar göydən yerə ildırım çaxanda tökülür və ona sahib olanları bütün bəlalardan qoruyur.

Qədim insanlar arasında daşların magik təsir qüvvəsinə inam güclü idi. Arxaik inama görə, yağış yağdırmaq üçün daşı çaya atardılar. Bu daşlar “yağmur daşı” adlanır.

Belə bir inam da var ki, müqəddəs daşı çevirməklə, təbiətə təsir etmək mümkündür. Qədim insanlar daşı şəfa, nicat və bərəkət rəmzi kimi qəbul etmişlər. Kiçik daşların un və yağ saxlanılan qablara atılması ibtidai dini təsəvvürlərin nəticəsidir.

Qədim inama görə, daşlar müalicəvi xüsusiyyətlərə də malik idi. “Dalaq daşı”, “Yeri daş”, “Öskürək daşı” müasir dövrdə də pir hesab olunur.

Qurbankəsmə mərasimində daşlar qurbangah rolunu daşıyır, müqəddəs hesab olunurdu. Belə daşlara Daşkəsən bölgəsində, Pirsultan, Qara və Ziyarət dağlarında rast gəlinir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 16 dekabr


## Murad Dadaşov məşhur şouda



Əməkdar artist Murad Dadaşov Rusiyanın məşhur "Pole Çudes" capital-şousunun qonağı olacaq. SİA-nın məlumatına görə, aparıcı bu gün axşam Rusiyanın "Birinci" kanalında yayımlanan şouya qatılacaq. 25 ildir yayımlanan reytinqli verilişdə sürprizlərlə dolu oyun olacaq. Proqramda Azərbaycanın mədəniyyəti və tarixi barədə geniş məlumat veriləcək.

## Elxan Cəlilov Tehranda ölkəmizi təmsil edib

Sumqayıt Regional Mədəniyyət və Turizm idarəsinin Abşeron rayon Xırdalan şəhər 11 illik musiqi məktəbinin saz ixtisası üzrə müəllimi Elxan Cəlilov Tehranda keçirilən "Beynəlxalq Aşıq Festivalı" nda ölkəmizi təmsil edib. SİA-nın məlumatına görə, İran İslam Respublikasının Tehran şəhərində İran Aşıqlar Birliyinin təşkilatçılığı ilə Aşıq Qərib adına "Beynəlxalq Aşıq Festivalı" keçirilib. İran, Türkiyə, Gürcüstan saz ustadlarının dəvət aldıqları festivalda Azərbaycanı Abşeron rayon Xırdalan şəhər 11 illik musiqi məktəbinin saz ixtisası üzrə müəllimi Elxan Cəlilov təmsil edib. Festival çərçivəsində, dəvət almış aşıqların fərdi ifalarından sonra, bütün iştirakçıların birgə ifası ilə festivala yekun vurulub. Yüksək səviyyədə təşkil olunmuş festivalın bağlanış mərasimində çıxış edən İran Aşıqlar Birliyinin sədri Aşıq Səlcuq Şahbazi festivalın keçirilməsində əməyi olan hər kəsə təşəkkür edib. Sonda bütün iştirakçılara xatirə hədiyyələri təqdim olunub.

## Çingizxanı təhqir edən şəxs cəzalandırıldı

Çinin Daxili Monqolustan Muxtar Rayonunun məhkəməsi 19 yaşlı oğlanı Çingizxanın portretini təhqir etdiyi üçün bir il müddətinə azadlıqdan məhrum edib. Yerli KİV-lər xəbər verir ki, məhkəmə Luo adlı şəxsin bu hərəkətində etnik nifrət və diskriminasiya olduğunu müəyyən edib.

Qeyd edək ki, Luonun Böyük Monqol İmperiyasının qurucusu Çingizxanın portretini tapdalaması videosu internetdə yayılandan sonra sosial şəbəkə istifadəçilərinin və ictimaiyyətin qınağına tuş gəlib. Polisə bu barədə şikayət daxil olandan sonra müvafiq araşdırma əsasında iş məhkəməyə göndərilib. Luo məhkəmədə üzrxahlıq etsə də, həbs cəzasından canını qurtara bilməyib.

## "Bakıxanovlar şöhrət zirvəsində" kitabı nəşr olunub

Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Bakıxanovlar şöhrət zirvəsində" kitabının nəşri başa çatdırılıb. SİA-nın məlumatına görə, kitab maarifçi, alim və şair Abbasqulu Ağa Bakıxanov, Xalq artisti, tarzən Əhməd Bakıxanov və Xalq artisti, bəstəkar Tofiq Bakıxanovun həyat və yaradıcılığına həsr olunub. Kitab "Renessans-A" nəşriyyatında yüksək poliqrafik keyfiyyətlə çap edilib. Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan kütləvi kitabxanalara və müvafiq sayda aidiyyəti qurumlara paylanılacaq.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasının II kurs tələbəsi Zaidova Könül Adil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsızı sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin IV kurs tələbəsi Quliyeva Aynurə Tofiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsızı sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət ixtisası üzrə I kurs tələbəsi Cavadzadə Fərəh Ramin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Azərbaycanın UNESCO-ya üzvlüyünün 25 illiyi qeyd olunacaq

Azərbaycanın UNESCO-ya üzvlüyünün 25 illiyi münasibətilə dekabrın 19-da "Muğam klub"da tədbir keçiriləcək. SİA-nın məlumatına görə, tədbir çərçivəsində Azərbaycanın UNESCO siyahılarında yer alan maddi və qeyri-maddi mədəni irs nümunələrinə həsr olunmuş rəsm sərgisi açılacaq. Həmçinin UNESCO üzrə Azərbaycan Milli Komissiyasının sədr və sədr müavinlərinin çıxışları dinləniləcək, UNESCO-nun Yubileylər Proqramına daxil edilmiş Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin vəfatının 600 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunacaq.

## "Kəpəz"in qış hazırlıq proqramı müəyyənləşib



Futbol üzrə Azərbaycan Premyer Liqasında çıxış edən "Kəpəz" komandasının qış hazırlıq proqramı müəyyənləşib. SİA-nın məlumatına görə, istirahətə buraxılan kollektiv 2018-ci il yanvarın 5-də Bakıda bir araya gələrək tibbi müayinədən keçəcək.Futbolçular ayın 7-də baş məşqçinin sərəncamında olacaqlar. Yanvarın 8-dən isə "sarı-göylər" gündə iki dəfə olmaqla təlim-məşq toplanışına start verəcəklər. Ayın 13-nə kimi komanda "Dalğa Arena"da məskunlaşacaq. Daha iki gün isə futbolçular Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda hazırlıq keçəcək."Kəpəz"in üzvləri yanvarın 16-da istirahət edəcəklər. Bir gün sonra isə komanda Türkiyəyə yollanmaq üçün Heydər Əliyev adına Beynəlxalq Hava Limanında toplaşacaq. "Kəpəz" hazırlığın bundan sonrakı hissəsini Antalyada davam etdirəcək. Gəncə klubu fevralın 2-dək qardaş ölkədə olacaq.

## Ronaldo növbəti rekorda imza atıb



"Real"ın futbolçusu Kriştiano Ronaldo növbəti rekorda imza atıb. SİA-nın məlumatına görə, portuqaliyalı ulduz klublararası dünya çempionatı tarixinin ən yaxşı bombardiri olub. Ronaldo bu turnirin yarımfinalında "Əl-Cəzirə"yə qalib gəldikləri matçda (2:1) fərqlənərək klublararası dünya çempionatında vurduğu qolların sayını 6-ya yüksəldib. Bununla da Ronaldo Lionel Messi, Luis Suares, Sesar Delqadonu (5 qol) geridə qoyaraq ən yaxşı bombardir olub.

## Güləş üzrə Azərbaycan çempionatı davam edir



Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı davam edir. SİA xəbər verir ki, Gənclər və İdman Nazirliyi və Azərbaycan Güləş Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışlarda 18 yaşı tamamlanmış, 1999-cu il və yuxarı təvəllüdlü idmançılar iştirak edirlər. Şəxsi xarakter daşıyan yarışlarda idman cəmiyyətləri, idman klubları, idman təşkilatları, şəhər və rayon yığma komandalarının tərkibinə daxil olan idmançılar mübarizə aparırlar. Çempionatın ikinci günündə yunan-Roma güləşçiləri arasında 60, 67, 77, 87 və 130 kiloqram çəki dərəcələrində ilkin görüşlər keçirilir. Dünya Güləş Birliyinin qaydalarına əsasən keçirilən yarışlar Azərbaycan Güləş Federasiyası Hakimlər Kollegiyasının təyin etdiyi hakimlər tərəfindən idarə olunur. Çəki dərəcələri üzrə ilk 3 yeri tutmuş idmançılar AGF tərəfindən müvafiq diplom, medal və pul mükafatı ilə mükafatlandırılacaq, onlar ölkə yığma komandasının heyətinə cəlb ediləcək və il ərzində komandanın iştirak edəcəyi beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək imkanı qazanacaqlar.

## UEFA-dan fair-playlə bağlı məktub

UEFA-nın Fair-Play və Sosial Məsuliyyət Komitəsindən məktub daxil olub. SİA-nın məlumatına görə, komitənin sədri Peter Gillieronun imzaladığı məktubun əsli "Kəpəz" PFK-ya, surəti isə AFFA-ya ünvanlanıb. Məktubda Topaz Premyer Liqasının 11-ci turunda Gəncə şəhər stadionunda keçirilmiş "Kəpəz" - "Qarabağ" oyununda meydan sahibi komandanın üzvü Viktor Oseqeylin nümayiş etdirdiyi fair-play nümunəsi təqdir olunub. Xatırladaq ki, qeyd olunan oyunun 26-cı dəqiqəsində, hesab 0:0 olarkən "Kəpəz"in futbolçusu Viktor Oseqeyl ilə "Qarabağ"ın qapıçısı İbrahim Şehiç arasında cərimə meydançası daxilində mübarizədən sonra qarşılaşmanın baş hakimi 11 metrlik cərimə zərbəsi təyin etmiş, Viktor Oseqeyl referiyə yaxınlaşaraq ona qarşı qayda pozuntusu olmadığını bildirmiş və hakim penalti qərarını ləğv etmişdi.

Viktor Oseqeylin ədalətli oyun prinsiplərinə sadiq hərəkəti ərədə AFFA tərəfindən UEFA-nın Fair-Play və Sosial Məsuliyyət Komitəsinə məlumat verilmişdi.


**Baş redaktor:** Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:** Valeh Məhərrəmli, Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500